www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24-25 oktyabr 2015-ci il Şənbə № 236 (6264) Qiyməti 40 qəpik

Xəbər

**Abbas Abbasovun qardaşı azadlığa buraxıldı**

yazısı səh.2-də

Gündəm

**10 min manatlıq vergisiz malı ölkəyə kimlər gətirə bilər...**



Ekspertlər fərmanı fərqli şəkildə izah edirlər; bəziləri bunu iş adamlarına, bəziləri sadə vətəndaşa dəstək hesab edir..

yazısı səh.11-də

**Arif Hacılı 20 Avropa ölkəsinin səfiri ilə görüşdü**

yazısı səh.4-də

**Keçmiş nazirin əsas kassirlərindən olan şəxsin adı açıqlandı**

yazısı səh.3-də

**Müxalifət hakimiyyət daxilində baş verənlərdən məmnundurmu?**

yazısı səh.6-da

**Sabah Müsavat mitinq keçirəcək**

yazısı səh.4-də

*Ərdoğan:*
**"Ankara qətliamını PKK və İŞİD törədib"**

yazısı səh.9-da

**"Şərurlu İsfəndiyar"la Eldar Mahmudovun işbirliyi iddiası...**

yazısı səh.10-da

**"Aztelekom" rəhbərinin oğlu Kiyevdə dəhşətli qəza törətdi**

yazısı səh.14-də

**Növbəti təhlükəli plan: Qarabağ üçün Rusiyaya birləşmə testi?**

yazısı səh.12-də

**Tamerlan Qarayevin Bakıya niyə gəldiyi bilindi**

yazısı səh.11-də

**Kənd təsərrüfatı məhsullarının qiyməti bahalaşıb**

yazısı səh.15-də

**Gəncədə aksiya keçirmək istəyən dindarlar saxlanıldı**

yazısı səh.14-də

## MTN-in daha 4 generalı işdən qovuldu: "təmizləmə" davam edəcək

# ELDAR MAHMUDOVUN "BRİLYANT ƏLİ" ÜZƏ ÇIXDI

Ölkə rəhbərliyi MTN-in bütün strukturlarında başladılmış yoxlamaların mümkün qədər tez yekunlaşmasını istəyir ki, bu da səbəbsiz deyil - komandada gərginlik pik həddə; MTN-in Səfər Əbiyevi həbs etmək niyyəti olub, amma...; 2 milyard dollar ölkədən necə və hansı yolla çıxarılıb?



yazısı səh.8-də

## Rusiya ilə İran arasında təhlükəli yaxınlaşma - Bakı üçün yeni hədə

Moskva və Tehran Xəzər dənizini sürətlə hərbiləşdirir; Azərbaycan-ABŞ yaxınlaşması və hərbi əməkdaşlığı zərurətə çevrilir...

yazısı səh.9-da



*Hacı İbrahim Nehrəmli:*
**"İndiyədək MTN məndən bir qəpik də rüşvət almayıb"**

yazısı səh.10-da



Yusif İlqar oğlu Əliyev

**Deputatlığa namizəddən seçicilərə sensasion çağırış**

yazısı səh.5-də



**Şeyxdən zəncir xəbərdarlığı: "Belə etməyin..."**

yazısı səh.2-də







# Pənah Hüseyn seçiciləri ilə növbəti görüşünü keçirdi





**Pənah Hüseynin seçicilərlə izdihamlı görüşləri davam edir. Oktyabrın 23-də Sabirabad rayonu Qalağayın kəndində Pənah Hüseynin seçicilərlə növbəti görüşü keçirilib. Görüşdə 200-dən çox şəxs iştirak edib.**

P.Hüseyn çıxış edərək seçki platformasından danışıb. Qalağayın kəndi sakinlərinin suallarını cavablandırıb. Kənd ağsaqqallarından Mir Tağı ağa, Feyzulla müəllim çıxış edərək seçkilərdə P.Hüseynə uğurlar arzulayıb. Böyük coşqu ilə keçən görüşdən sonra da P.Hüseyn seçicilərlə ayrı-ayrı görüşərək onları dinləyib. Görüşdən fotoları təqdim edirik.

## Şeyxdən zəncir xəbərdarlığı: "Belə etməyin..."

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sabahkı Aşura günü ilə bağlı dindarlara müraciət edib. QMİ-dən virtualaz.org saytına verilən məlumata görə, Aşura günü nizam-intizamın təmin edilməsi üçün lazımi addımlar atılacaq.**

"Aşura mərasimləri məscidlərdə, ibadət ocaqlarında, habelə xüsusi ayrılmış məkanlarda ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməli, təziyə məclislərində Kərbəla şəhidlərinin şəninə xütbələr oxunmalı, habelə Vətən uğrunda şəhid olanların əziz xatirəsi yad edilməlidir. Müqəddəs məkanlarda nizam-intizam gözlənilməli, qurşağadək soyunaraq zəncir və ya başqa alətlərlə bədənə xəsarət yetirməklə qan çıxarmaq kimi İslamda bəyənilməyən hərəkətlərə yol verilməməlidir", - deyə qeyd edilib.

Qeyd edək ki, **QMİ rəhbəri Allahşükür Paşazadə** də çıxışlarında Aşura günü cənzir vurmağın əleyhinə olduğunu bəyan edib: "Yəni zəncir vurmaq, qan çıxarmaq, küçələrə çıxıb, səs-küy salmaq olmaz. Çünki bu bizim şəriətə uyğun deyil".

**A.Paşazadə Azərbaycan xalqını Aşura günü keçiriləcək qanvermə aksiyasında qan verməyə dəvət edib.**

## Abbas Abbasovun qardaşı azadlığa buraxıldı

**Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasovun həbs altında saxlanılan qardaşı Nadir Abbasov bu gün azadlığa buraxılıb. Bu barədə virtualaz.org-a hüquq-mühafizə orqanlarındakı mənbələr məlumat veriblər.**

Məlumata görə, Abbas Abbasov bir neçə gün əvvəl Azərbaycan prezidenti İlham Əliyevə tövbə məktubu yazaraq bağışlanmasını xahiş edib.

Məlumata görə, A.Abbasov dövlət başçısını əmin edib ki, bundan sonra o heç vaxt və heç bir halda ictimai və siyasi fəaliyyətlə məşğul olmayacaq, ələlxüsus da Azərbaycan əleyhinə yönəlik siyasi oyunlara qoşulmayacaq.

Xatırladaq ki, Nadir Abbasov bu il iyunun 26-da Beynəlxalq Bank və qaytarılmayan kreditlər işi ilə bağlı DİN-in Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən saxlanılmışdı.

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi iş yoldaşları Tərifə xanıma qardaşı Sadıqov Mahir Əvəz oğlunun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

"Elm" tədris mərkəzi
**MAGIC LANGUAGES**
- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;



## Adı MTN çetesinə daxil olmaqda hallanan deputat danışdı

### Əsabil Qasımov: "Barəmdə nə istəyirlərsə yazsınlar"

**Eldar Mahmudov milli təhlükəsizlik naziri postundan uzaqlaşdırılandan sonra onun biznes şəbəkəsi, ətrafında olan şəxslərin, onun maraqları çərçivəsində deputat mandatı qazanmış millət vəkillərinin, vəzifə sahiblərinin siyahısı ortaya çıxdı. Adı sabiq nazirin çetesinə daxil olmaqda hallanan deputatlardan biri də 79 saylı İmişli seçki dairəsindən deputat olan Əsabil Qasımov idi. MTN şefinin parlamentdəki nümayəndələrindən birinin də məhz Ə.Qasımov olduğu iddia edilirdi.**

Deputatla əlaqə saxlayıb, sabiq nazirlə münasibətləri, barəsində yazılanlara münasibətini öyrəndik. Ə.Qasımov dedi ki, E.Mahmudovla tanışlığı haqda iddialar doğru deyil: "Yazırlar ki, sabiq nazir Eldar Mahmudovla yaxınam. Mən də deyirəm ki, Eldar Mahmudovla heç vaxt tanışlığım olmayıb. Onun heç 15 metrliyində də ömrüm boyu dayanmamışam. Mən seçki kampaniyası aparıram. Barəmdə nə istəyirlərsə yazsınlar".

Ə.Qasımov barəsində belə məlumatların kimlərin yaymasından xəbərsiz olduğunu söyləyib.

Qeyd edək ki, E.Mahmudovun Milli Məclisdəki əsas kadrları kimi Ə.Qasımovdan savayı deputatlar Çingiz Əsədullayev, Malik Həsənov, Rüfət Quliyev, Rafael Cəbrayılov, Rövşən Rzayev və digərlərinin adı hallanırdı. Bu şəxslərdən hər birini dinləməyə, mövqelərini dərc etməyə hazırıq.

❑ **E.MƏMMƏDLİYEV**

## Vəkili Rauf Mirqədirovla görüşdü

### Elmar Süleymanov: "Vəziyyətini ağırlaşdırmaq istəməzdim"

**"Ayna-Zerkalo" qəzetinin həbsdə olan əməkdaşı Rauf Mirqədirovun məhkəməsinin başlayacağı tarix məlum olub. Proses noyabrın 4-də Bakı Ağır Cinayətlər Məhkəməsində start götürəcək.**

Milli Təhlükəsizlik Nazirliyində baş verən məlum hadisələr digər məsələlər kimi R.Mirqədirovun da həbsini gündəmə gətirib. Belə ki, jurnalistin həbsinin ilk günlərindən bu prosesdə MTN-in də əlinin olması barədə mətbuat və cəmiyyətdə zaman-zaman fikirlər səslənib. Bəzi ekspertlər hesab edirlər ki, yaşananlar onun azadlığa çıxması üçün "yaşıl işıq" ola bilər.

Oktyabrın 22-də MTN təcridxanasında R.Mirqədirovla görüşən vəkil Elmar Süleymanov baş verən hadisələrin hüquqlarını müdafiə etdiyi şəxsə nə dərəcə kömək olacağını söyləməyin çətin olduğunu qeyd etdi: "MTN-də baş verənlər bir vətəndaş olaraq, hamımızı sarsıtdı. Çox gözlənilməz hadisələr baş verdi. İndidən bu işin Rauf Mirqədirova necə kömək olacağını proqnozlaşdırmaq çətindir. Bildiyiniz kimi, bu işi Baş Prokurorluq aparıb. MTN-in icraatında olmayıb. Amma hər bir halda gözləməyə məcburuq. Bu sualınıza cavab vermək mənim üçün olduqca çətindir".

İstintaq sirri olmasına baxmayaraq, vəkildən jurnalistin il yarım müddətində davam edən istintaqında hazırda "MTN işi"ndə adı daha çox hallanan şəxslərin olub-olmamasını da soruşduq: "Bu barədə hər hansı bir məlumat verə bilməyəcəm. Bildiyiniz kimi, istintaq işində hər hansı bir məlumat vermək mümkün deyil. Belə bir məlumat verib hüquqlarını müdafiə etdiyim şəxsin vəziyyətini ağırlaşdırmaq istəməzdim".

E.Süleymanov təcridxanada jurnalistlə olan son görüşünə də toxundu: "Rauf Mirqədirovla oktyabrın 22-də görüşdüm. Səhhəti normaldır. Məhkəmə ilə bağlı cinayət işi ilə o da, biz də tanış olmuşuq. Vəsatətlərimizi artıq vermişik. Mühüm məsələləri həmin vəsatətlərdə qeyd etmişik. Ümid edirik ki, Rauf Mirqədirovun işi müsbət həll olunacaq. Məhkəmə ilə bağlı azacıq da olsa, onda həyəcan var. Çünki biz ədalət mühakiməsi mərhələsinə qədəm qoyuruq. Məhkəmənin hökmündən çox şey asılı olacaq. Rauf Mirqədirovun taleyi həll olunacaq. Bu baxımdan həyəcan keçirməyi normaldır".

Xatırladaq ki, Rauf Mirqədirov ötən il aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya olunub. Həmin gün təyyarə ilə Bakıya göndərilən jurnalisti MTN əməkdaşları saxlayıb.

Onun barəsində Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə həbs-qətimkan tədbiri seçilib. İlyarımdır ki, jurnalist həbs müddətinin uzadılması yolu ilə həbsdə saxlanılır.

❑ **Cavanşir ABBASLI**

## İŞİD-ə qoşulmaq istədi, tutuldu

**Dövlət sərhəd xidməti 3 nəfəri saxlayıb. Dövlət sərhəd xidməti İŞİD silahlı qüvvələrinə qoşulmaq istəyən Azərbaycan vətəndaşını sərhədi pozarkən saxlayıb. Əvvəllər Suriyada İŞİD silahlı birləşmələrinin tərkibində döyüşən Beyləqan rayonu Birinci Şahsevən kənd sakini Babək Şirinov Gürcüstan və Türkiyə vasitəsi ilə Suriyaya keçmək istəyib. Əməliyyat-axtarış tədbirləri zamanı ona kömək edən Zaqatalanın Əliabad kənd sakini Əfqan Şamxalov da tapılıb.**

Ağstafanın Sadıxlı kəndində isə sərhəd zastavası xidməti Gürcüstandan ölkəyə qaçaq mal gətirilməsi cəhdinin qarşısı alıb. Sərhəd pozucusu iki bağlamada Çin istehsalı olan 254 ədəd mobil telefonu hadisə yerində ataraq geri qaçıb. Gürcüstandan Azərnbayncana 30 baş iribuynuzlu mal-qara gətirən Qazax rayon sakini Elsevər Məmmədov isə yaxalanıb.

**Hər üç fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir. (Region TV)**

## İlham Əliyev Yaqub Eyyubova "Şərəf" ordeni verdi

**Prezident İlham Əliyev baş nazirin müavini Yaqub Eyyubovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Bu barədə Prezidentin rəsmi saytı məlumat yayıb. Sərəncamda qeyd edilir:**

- Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram: Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətinə görə Yaqub Abdulla oğlu Eyyubov "Şərəf" ordeni ilə təltif edilsin.

## Dünyanın ən varlı adamlarının reytinq siyahısında dəyişiklik olub

**İspaniyalı sahibkar, "Zara" mağazalar şəbəkəsinin qurucusu Amansio Orteqa "Microsoft"un qurucusu Bill Qeytsi keçərək palanetin ən varlı adamı olub.**

"Report" RBK-ya istinadən xəbər verir ki, bu, "Forbes" jurnalının araşdırmasına əsasən müəyyən edilib.

Məlumata görə, onun var-dövləti 79,7 milyard dollardır. Xəbərə görə, son sutkada ispan iş adamının varidatı 5,2 faiz, yaxud 3,9 milyard dollar artıb.

Bill Qeyts oktyabrın 23-də 78,1 milyard dollarlıq var-dövləti ilə "Forbes"in reytinq siyahısında ikinci yeri tutub. Son sutkada onun varidatı isə 0,7 faiz və ya 572 milyon dollar artıb.

Qeyd edək ki, "Bloomberg" ("Bloomberg Billioners Index") agentliyinin reytinq siyahısına görə, Amansio Orteqa 75,7 milyard dollarlıq var-dövləti ilə ikinci yerdədir. Bu siyahıda isə Bill Qeyts 83,8 milyard dollarlıq varidatı ilə birincidir.

## QAT Ramiz Mehdiyevə şikayət etdi

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı Qarabağ döyüşçüsü Tağı Kazımovun hüquqlarının pozulması ilə bağlı Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevə müraciət edib. Müraciətdə göstərilir: "Qarabağ döyüşçüsü, Qarabağ Azadlıq Təşkilatının üzvü Kazımov Tağı Süleyman oğlunun hüquqlarının kobud şəkildə pozulması, ona qarşı haqsızlıq edilməsi ilə bağlı Sizə müraciət edirik.**

Bakı şəhəri, Binəqədi qəsəbəsi, III mədən 124-cü korpusda yaşayan Kazımov Tağı Süleyman oğluna Binəqədi bələdiyyəsi tərəfindən mülkiyyətinə ayrılmaqla, fərdi yaşayış evinin tikilməsi məqsədi ilə 29 dekabr 2006-cı il tarixli 487 saylı qərarı ilə alqı-satqı qaydasında verilmiş 600 kvadratmetr torpaq sahəsi Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov və prezident administrasiyasının şöbə müdiri Zeynal Nağdəliyev tərəfindən zorla əlindən alınaraq axırıncıya villa tikilir. Bu barədə o ayrı-ayrı dövlət orqanlarına 20-dən çox teleqram və məktub göndərsə də heç bir cavab ala bilməmişdir. Sizin məmur özbaşınalığına qarşı apardığınız siyasət elə sizin ən yaxın ətrafınız tərəfindən də kobud şəkildə pozulur və hətta vətəndaş ayrı-ayrı öyrədilmiş şəxslər hədə yolu ilə təhdid edirlər. Sizdən xahiş edirik, bu məmur özbaşınalığına və korrupsiyaya son qoyulması üçün tədbir görəsiniz".

❑ **Vüqar MURAD**

YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Milli Təhlükəsizlik Nazirliyində oktyabrın 17-də baş tutan xüsusi əməliyyat illərlə qapalı qalan bir çox cinayət xarakterli olayların üzərinə işıq salıb. Eldar Mahmudovun 11 illik nazirliyi dövründə bu qurumda baş verən və verməsi iddia olunan saysız-hesabsız qanunsuzluqlar haqda hər gün qəzet redaksiyalarına onlarla məlumatlar daxil olur. Təəssüf ki, bu məlumatlarla bağlı dəqiqləşdirmə aparmaq istəyimiz hüquq mühafizə orqanları tərəfindən "istintaq gedir" nidası ilə cavabsız buraxılır.**

# MTN-dəki toplanılan xəracla bağlı yeni bilgilər

## Keçmiş nazirin əsas “kassirlərindən olan şəxslə bağlı məlumat yayıldı; polis Bakıda vəhhabilərə qarşı xüsusi əməliyyat keçirib 40-dan çox dindarı saxladı; istintaq qanunsuzluqlarla üzləşən sahibkarları dindirməyə başladı



Hazırda Baş Prokurorluqda MTN-də baş verənlərlə bağlı Cinayət Məcəlləsinin 3 maddəsi ilə cinayət işinin istintaqı aparılır. Rəsmi olaraq 7 MTN əməkdaşının tutulması təsdiqlənir və qeyd olunur ki, tutulanlar xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq səlahiyyətlərindən sui-istifadə etməklə, əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyin tələblərini pozmaqla, sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələrə yol veriblər. Ayrı-ayrı şəxslərin hüquq və qanunla qorunan mənafelərini pozublar.

Redaksiyamıza daxil olan məlumatların əksəriyyəti də Baş Prokurorluğun yaydığı rəsmi məlumatda yer alan fikirləri tamamlayır və bu səbəbdən də oxucularımızın diqqətinə çatdırılır.

### Narkotik satışı, silah alveri, insan alveri və şantaj...

Məlumdur ki, bütün dünyada qanunsuz fəaliyyətlə məşğul olan çetelərin baş vurduğu əsas istiqamətlər narkotik satışı, silah alveri, insan alveri və sonda şantajdır. Prezident İlham Əliyev Eldar Mahmudovu nazir postundan uzaqlaşdırandan sonra onun yaxın qohumu olan Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) rəhbəri Beytulla Hüseynov da hüquq-mühafizə orqanları tərəfindən saxlanıldı. Məlumatlara görə, Hüseynovun bu quruma rəhbər təyin edilməsinə Eldar Mahmudov yardım edib. Buna səbəb isə ölkədə telefon danışıqlarına daha rahat şəkildə nəzarət etmək olub. Belə məlumatlar var ki, ayrı-ayrı vəzifəli şəxslərin, sahibkarların dinlənilməsi həm də B.Hüseynovun əli ilə baş tutub. Xüsusi xidmət orqanlarının sərəncamında dinləmə və izləmələri həyata keçirmək üçün başqa texnoloji vasitələrin olduğu sirr deyil. Dinləmələr zamanı əldə olunan informasiyalar sonradan şantaj vasitəsi kimi istifadə olunub. Hətta hazırda iş başında olan nazirlərin, komitə sədrlərinin də bu yolla şantaj edildiyi, onlardan hər ay xərac alındığı haqda xəbərlər də var.

### MTN-dəki "təmizələmələr"dən sonra Bakıda vəhhabi ovu təsadüfidir?

Redaksiyamıza daxil olan məlumatlarda hazırda istintaqa cəlb olunan MTN-çilər arasında pul qarşılığında radikal islamçılara, İraq Şam İslam Dövləti (İŞİD) terror təşkilatına simpatiyasını gizlətməyən şəxslərə himayədarlıq edənlərin olduğu da deyilir.

Bildirilir ki, bəzi MTN-çilər vəhhabilərdən pul almaqla uzun illər onların Bakı və rayonlarda şəbəkələşməsinə göz yumub, dini radikalizmi təbliğ edən dini ədəbiyyatların yayılmasının qarşısını almayıblar. Maraqlıdır ki, MTN-də baş verən "təmizləmələr"dən sonra Bakıda radikal dini qruplaşma üzvlərinə qarşı əməliyyat keçirilib.

Yasamal Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, "Farklı Lahmacun" kafesində həyata keçirilən əməliyyat zamanı vəhhabi təriqətinin üzvü olduğu ehtimal olunan 40-a yaxın şəxs saxlanılıb. Saxlanılanların arasında "Əbu Bəkr" məscidinin imamı Qamət Süleymanovun müavini Adil Rəcəbov da var. Q.Süleymanov özü isə musavat.com-a açıqlamasında tutulan şəxsin onun müavini olmadığını deyib. Əməliyyatın baş tutduğu kafedən dini xarakterli ədəbiyyat da götürülüb. Xəbər verilir ki, tutulanlardan bir neçəsinə qarşı CM-in 168.2-ci - dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə - maddəsi üzrə cinayət işi başlanıb. Tutulanlar arasında Zaqatala rayon sakinləri Adil Məmməd oğlu Rəcəbov, Kamran Eldar oğlu və Bakı sakini Zaur Əhəd oğlu Şabanovun olduğu bildirlir. Hazırda saxlanılanların Azərbaycandan xaricdə qanunsuz silahlı birləşmələrin tərkibində döyüşüb-döyüşmədiyi araşdırılır. Ehtimal edilir ki, onların Suriya və İraqda döyüşən radikallarla əlaqələri var.

### MTN-dəki rüşvət məbləğləri haqda şok məlumatlar - konkret adlar!!!

"Yeni Müsavat"a daxil olan ən son məlumatda deyilir ki, Eldar Mahmudovun milli təhlükəsizlik naziri olduğu dövrdə (2004 - 2015-ci illər), nazirliyin "kassir"i kimi Kadrlar Baş İdarəsinin rəis müavini polkovnik Tehran Babatov tanınıb. T.Babatov tərəfindən bütün alver məsələləri, işə götürmə və MTN-in Heydər Əliyev adına Akademiyasına qəbul zamanı tələb olunan rüşvətin məbləği müəyyənləşdirilib. Məlumatda iddia edilir ki, bu məsələlər T.Babatovun şəxsən özü tərəfindən nümayişkaranə formada bildirilib.

Belə ki, ilk dəfə işə qəbul edilən, birbaşa nazirliyin özünə və ya Bakı qarnizonuna təyinat alan şəxslərdən 70 min dollar, Bakı qarnizonundan kənarda yerləşən rayon strukturlarına qəbul edilən əməkdaşlardan isə 50 min dollar rüşvət tələb edilib. Həmçinin, Akademiyaya kursant qismində qəbul üçün 150 min dollar, dinləyici kimi qəbula isə 30 min dollar rüşvət tələb edilib.

Bütün rüşvətlər Tehran Babatov tərəfindən şəxsən alınıb, rüşvət məbləğinin durmadan yüksəlməsinə də elə onun özü nəzarət edib.

Eyni zamanda, fəaliyyət göstərən əməkdaşlardan nazirliyə və Bakı qarnizonuna təyinat yerinin dəyişdirilməsinə 40 min dollar, Bakı qarnizonundan kənardakı digər rayon şöbələrinə təyinat yerinin dəyişdirilməsi üçün 15 min dollar rüşvət tələb edilirdi.

Göstərilənlərlə yanaşı, Bakı qarnizonunda yerləşən rayon idarələrinə rəis heyətinə təyin edilmək üçün 500 min dollar, Bakı qarnizonundan kənarda yerləşən şöbə və idarələrə isə 200-500 min dollar civarında (həmin rayonun varlı və ya kasıb olması baxımından) rüşvət tələb edilib. İddialara görə, əldə edilən rüşvətin 10 faizi şəxsən Tehran Babatovun özünə, 30 faizi Kadrlar Baş İdarəsinin rəisi general-mayor Əlimusa Əliyevə, 60 faizi isə nazir Eldar Mahmudova çatırmış.

Tehran Babatov, əvvəllər Dövlət Sərhəd Xidmətinin kadrlar idarəsində işləmiş, yol verdiyi ciddi nöqsanlara və rüşvətxorluğa görə işdən azad edilmiş, lakin 2004-cü ildə Eldar Mahmudov tərəfindən MTN-ə gətirilərək Kadrlar Baş İdarəsinə şöbə rəisi vəzifəsinə təyin edilmişdi. Bu səbəbdən, 2005-ci ildən bu yana olan bütün kadr təyinatlarında varlı ailələrin övladlarının MTN-ə kütləvi axını başlamış, nəticədə savadsız və bacarıqsız işçilər ordusu yaranmışdır. Həmin kadrlar tərəfindən mütəmadi olaraq qanun pozuntularına, özbaşınalığa və səriştəsizliyə yol verilmiş, ölkə rəhbərliyindən həmin faktlar gizlədilmişdir.

### MTN-də şantaj olunan sahibkarlar Baş Prokurorluqda dindirilir

Hazırda "MTN işi" üzrə zərərçəkən sahibkarların siyahısı hazırlanır. Redaksiyamıza daxil olan məlumata görə, həmin şəxslərdən bir neçəsinin artıq ifadəsi alınıb. Sahibkarlardan biri Maqsud Mahmudov redaksiyamıza bildirib ki, artıq vəkili sənədləri hazırlayaraq istintaqa təqdim edib. Onun özü də dindirilib.

Baş Prokurorluqda dindirilənlərdən biri də Sarə Məmmədovdu. Onun Sabunçu rayonu, Bakıxanov qəsəbəsində 10 sot torpağı zəbt edilib. S.Məmmədov istintaqçılara deyib ki, onun özəl torpağı MTN-in Sabunçu Rayon Şöbəsinin rəisi Faiq Nuriyev tərəfindən zəbt olunub. Torpağını tələb edəndə isə ona deyiblər ki, orada nazir Eldar Mahmudova villa tikilir, əbəs yerə başını ağrıtmasın. S.Məmmədov torpağın boşadılmasını israr edəndə isə üzünə 2 şəxsi qoyacaqlarını, maşınına silah, narkotik atacaqlarını və ya qadınla şantaj edəcəklərini deyiblər.

M.Mahmudova da oxşar hədələr gəlinib. 2 ay əvvəl MTN-in Antiterror Mərkəzinə dəvət olunan iş adamına "istəsək səndən bin Laden, narkobaron da düzəldə bilərik" deyiblər. Qarşısına Bakıda olan obyektinin, restoranının, maşınlarının, övladının təhsil aldığı məktəbin və ona aid olan digər məlumatları qoymaqla konkret rəqəm səsləndiriblər - 250 min manat! Sahibkar deyib ki, orada həmin məbləği ödəməsə, barəsində cinayət işi başlanılacağını bildiriblər. Məcburiyyət qarşısında qaldığından tələb olunan məbləği ödəmək üçün obyektini yarı qiymətə satıb. "Obyektimə görə beh kimi aldığım 120 min manatı verdim, məni azad etdilər. 130 min manatı isə sonrakı ay ərzində obyekti satdığım şəxsdən hissə-hissə alaraq verib canımı qurtardım".

Sahibkar "həmin dövrdə niyə şikayət etmirdiz" sualına "nəslimi kəsərdilər" cavabını verib.

### "MTN işi" üzrə istintaq gedir

1 həftə əvvəl baş tutan əməliyyatla bağlı Baş Prokurorluqda araşdırmalar aparılır. "Yeni Müsavat" əməkdaşı istintaqın gedişatı ilə bağlı qurumun mətbuat xidmətinə sorğu ünvanlayıb. Xidmət rəhbəri Eldar Sultanov sorğumuza cavab olaraq bildirib ki, hazırda intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir. İstintaqın gedişatı barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin olunacaq.

❑ E.MƏMMƏDƏLİYEV



## MTN-in daha 9 zabiti işdən çıxarıldı: 4-ü generaldır

**Trend Milli Təhlükəsizlik Nazirliyinin 9 yüksək vəzifəli əməkdaşının vəzifədən azad olunmaları ilə bağlı özəl informasiya əldə edib. Məlumatda qeyd olunur ki, MTN-nin Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanov, Baş İdarə rəisi, general-mayor Tarverdi Məmmədov, Baş İdarə rəisi, general-mayor Pərviz Səfərov, Hərbi Hissə komandiri, general-mayor Vüqar Allahquliyev, MTN-nin Hava Limanı İdarəsinin rəisi, polkovnik Pərviz Vəliyev, Nazirliyin Kadrlar İdarəsinin rəis müavini, polkovnik Tehran Babatov və Xətai, Pirallahı, Masallı rayon şöbələrinin rəisləri tutduğu vəzifələrindən azad olunaraq sərəncama götürülüblər.**

Əldə etdiyimiz daha bir məlumata görə, MTN-də kadr islahatları bundan sonra da davam edəcək və yaxın zamanda digər yüksək vəzifəli məmurların da vəzifələrindən azad ediləcəyi gözlənilir.

Xatırladaq ki, oktyabrın 20-də Baş Prokurorluq Milli Təhlükəsizlik Nazirliyinin yüksək rütbəli zabitlərinin həbsi ilə bağlı məlumat yayıb. Məlumatda deyilir ki, Milli Təhlükəsizlik Nazirliyinin (MTN) ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq-əməliyyat qrupu yaradılıb.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində nazirliyin bir qrup əməkdaşı tərəfindən xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq səlahiyyətlərindən sui-istifadə etmə və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tələblərini pozmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr edilməsi, ayrı-ayrı şəxslərin hüquq və qanunla qorunan mənafelərinin pozulmasında əsaslı şübhələr müəyyən edilib.

**Cinayət işi üzrə Milli Təhlükəsizlik Nazirliyinin 7 vəzifəli şəxsi Cinayət Məcəlləsinin 308.2, 309.1 və 302.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə məhkəmənin müvafiq qərarları barələrində həbs qətimkan tədbiri seçilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.**



# Belə də seçki olur...

Hüseynbala SƏLİMOV

**Bəlkə də MSK-dan səslənən epizodik xəbərlər olmasaydı adam bu ölkədə cəmi bir neçə gündən sonra seçki, özü də parlament seçkisi olacağına inanmazdı. Amma inansaq da, inanmasaq da, bunu seçki hesab etsək və hətta etməsək də bu yaxınlarda seçki olacaq...**

Fəqət, təkcə Azərbaycanda seçki olmayacaq. Qardaş Türkiyə də seçkiyə hazırlaşır. Və məni mütəəssir edən epizod da Türkiyədəki seçki ilə bağlıdır. O gün televiziyada maraqlı bir epizod gördüm. Müxalifət lideri K.Kılıçdaroğlu danışır, minlərlə adam da onu dinləyirdi. Üstəlik, güclü yağış da yağırdı. Gəl ki, heç kim yağışın fərqində deyildi...

Açığı, mən kanalı nə vaxt çevirirəm, elə müxalifət nümayəndələrinin danışmasını görürəm. Bəli, Türkiyə müxalifətçiləri hakimiyyəti o ki var, elə də, belə də tənqid edirlər. Hər dəfə də məndə sual yaranır: əcəba, siz bizim Azərbaycanda olsaydınız nə edərdiniz?

Azərbaycanda müxalifətin parlamentə düşüb-düşməməsi bir tərəfə, hətta iş o yerə gəlib ki, pulsuz efir vaxtı almaq üçün heç bir partiya zəruri baryeri guya ki, aşa bilmir...

O gün fikir verdim, 400-dən çox adamın öz namizədliyini geri götürdüyünü dedilər. Niyə belə olur? Hərə seçkiyə bir məqsədlə qatılır. Hamısını bir tərəfə qoyuram, amma müəyyən qisim insanlar üçün də seçki bir növ siyasi debütdür ki, bundan siyasətə yeni gələn insanlar yararlanmağa çalışırlar...

Fəqət, onlar da başa düşür ki, əbəs yerə əziyyət çəkməyə, pul və vaxt xərcləməyə ehtiyac yoxdur. Ona görə namizədliklərini geri götürürlər. Hakim partiya bunu nə ilə izah edir, bilmirəm, amma onu bilirəm ki, əsl səbəb budur...

Bəli, bizə yalnız baş verənlərə baxmaq və köks ötürmək qalır. Bir də ölkədə, hakimiyyətin öz içində baş verən proseslərlə bağlı pıçıldaşmaq qalır ki, bunun da elə bir faydası yoxdur...

Türkiyədə də çox şeyi bəhanə edə, seçkini məhdudlaşdıra bilərdilər. Amma ki, etmirlər, millətə seçmək və seçilmək imkanı verirlər...

Demokratiyanı məhdudlaşdırmaq üçün ən böyük bəhanə təhlükəsizlikdir. Gəl ki, az qala hər gün terror aktı olmasına baxmayaraq qardaş Türkiyədə insanlar mitinqlərə gəlir və hakimiyyət də buna mane olmur...

Amma bizdə nə baş verir? Neçə illərdir ki, etiraz aksiyalarına icazə vermirlər ki, bəs yol hərəkəti üçün guya ki, problem yaradır...

Ona görə də adam az qalır ki, özünə türkiyəli desin. Bəli, hamımız türkük, gəl hamımız türkiyəli deyilik. Amma Türkiyədəki qaydaları görəndə deyirsən kaş heç olmasa, mən də türkiyəli olaydım...

Ən başlıcası isə bilirsiniz nədir? Mən bizim hakimiyyətin başbilənlərini dinləyirəm. "Böyük mətləblər" xırdalayır, elə hey siyasətdən danışrlar. Amma mənim beynimdən bir fikir keçir: bəylər, axı siz hələ siyasətçi üçün, böyük siyasətə iddialı adam üçün ilk mərtəbəni keçməmisiniz - hətta parlament seçkisini udmamısınız...

Hamıya deyirlər ki, sizə xalqın adından danışmağa kim haqq verib? Tamamilə doğru iraddır. Amma bunun o biri tərəfi də var. Onlar da soruşa bilərlər ki, bəs sizə kim haqq verib?..

Məsələ də elə bundadır. Düzdür, bundan da qurtuluş var. Bir tanışım deyirdi ki, neçə illərdir ki, Azərbaycan kanallarına baxmıram... Təəssüf ki, mən belə bacarmıram, maraq məni çəkir, bilə-bilə ki, doğru-dürüst bir şey verməyəcəklər, yenə də bizim kanallara çevirirəm ki, görüm nə göstərirlər?..

Bəli, parlament seçkisini də bələdiyyə seçkisinə bərabər etdilər. Demək olar ki, bələdiyyə seçkisində olduğu kimi, tamam etinasızlıqdır, necə deyərlər, heç kim heç kimin kitabını oxumur...

Bunları hətta hansısa namizədin bir-iki dəqiqəlik çıxışı qorxudur! Məhz buna görə də guya ki, heç bir partiya pulsuz efir üçün zəruri baryeri "aşa bilmir"....

Nə etmək olar? Bu sualı sizə yox, özümə ünvanlayıram. Bayaq dediyim kimi, heç nəyə fikir verməmək də olar. Amma bacararammı?..

Bu günlərdə hətta Gürcüstanda Rustavi-2 telekanalı ilə bağlı qalmaqal yaşandı. Bu kanalı özünün keçmiş sahibinə qaytarmaq, bu yolla da onun səsini boğmaq istəyirdilər. Bilmədim necə bitdi bu məsələ... Ona görə ki, mən bu sətirləri yazanda hələ proses gedirdi...

Amma demək istədiyim nədir? Bizdə telekanalların başına min bir oyun açırlar, fəqət, dillənən tapılmır. Baxıb görürsən ki, gürcülər nəsə etməyə cəhd göstərirlər...

**Ona görə də gileylənməyək ki, azad deyilik, ölkədə azadlıq yoxdur! Nə vaxt biz "qızıldan qiymətli" vaxtımızın heç olmasa, kiçik hissəsini azadlıq naminə sərf etdik ki, indi də azadlığın olmamasından gileylənək?..**

# Müsavat başqanı 20 Avropa ölkəsinin səfiri ilə görüşdü

**Oktyabrın 23-də Müsavat Partiyasının başqanı Arif Hacılı Avropa İttifaqının Bakıdakı ofisində Avropa İttifaqına daxil olan 20 Avropa ölkəsinin səfirləri ilə görüşüb.**

## Arif Hacılı müzakirə edilən məsələlərdən danışdı



**Müsavat Partiyasından verilən xəbərdə deyilir ki, görüşdə ölkəmizdə ictimai-siyasi vəziyyət, Parlament seçkilərinin gedişi, Avrointeqrasiya məsələləri, Qarabağ konfliktinin ədalətli həlli yolları, siyasi məhbuslar problemi, Avropa İttifaqı strukturları ilə Müsavat Partiyasının əməkdaşlıq perspektivləri və digər məsələlər müzakirə olunub.**

Tərəflər qarşılıqlı əməkdaşlığın davam etdirilməsi və intensivləşdirilməsinin zəruriliyini qeyd ediblər.

20 Avropa ölkəsi səfirlərinin hamısının birlikdə nədən təkcə Arif Hacılı ilə görüşdüyünə gəlincə, "Yeni Müsavat"a açıqlamasında Arif Hacılı bildirdi ki, bu, həmin ölkələrin səfirlərinin qərarıdır: "Bir həftə əvvəl mənə müraciət etdilər ki, Avropa İttifaqının səfirləri birlikdə mənimlə görüşmək istəyindədirlər. Mən də razılıq verdim və görüş 23 oktyabrda baş tutdu. Mənimlə təklikdə görüşdülər. Ancaq digər partiyaların nümayəndələri ilə onların bu tərkibdə görüşüb-görüşməməsi barədə məndə məlumat yoxdur".

**Müsavat başqanı qeyd etdi ki, görüşdə ən çox müzakirə olunan məsələ Azərbaycandakı ümumi ictimai-siyasi vəziyyətlə bağlı olub:** "Mən ümumi ictimai-siyasi vəziyyətlə bağlı fikirlərimi bildirdim. Bizi narahat edən problemləri çatdırdım. Parlament seçkiləri ilə bağlı, seçki kampaniyasının gedişində mövcud olan problemlərdən danışdım. Bütövlükdə həm də Qarabağ problemi ilə bağlı müzakirə apardıq".

Bu arada Azərbaycanın ATƏT yanında Daimi Nümayəndəliyi qurumun Daimi Şurasının iclasında "ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun mandatının pozulması" haqqında bəyanat yayıb. Bəyanatda bildirilir ki, ATƏT Parlament Assambleyasının Azərbaycandakı seçkilərdə iştirakdan imtina etməsi təəssüf doğurur: "Əməkdaşlıqdan imtina edən Azərbaycan deyil, ATƏT Parlament Assambleyasıdır. ATƏT PA seçkiləri müşahidədən imtina edən tərəfdir. Ona görə də yenidən əməkdaşlığa başlamaq barədə çağırış bizə deyil, Assambleyanın əməkdaşlıqdan imtina edən nümayəndələrinə ünvanlanmalıdır. Biz dəvətimizdən imtina edən ATƏT PA, Avropa Parlamenti və digərləri olmadan da seçkiləri keçirəcəyik. Şura formal orqandır, lakin biz hələ də müəyyən məsələni qaldıra bilərik. Direktor Link tərəfindən qəbul edilən qərar ATƏT-in 1994-cü il sammitində qəbul edilmiş prosedurların pozulması deməkdir. ATƏT-ə üzv dövlətlər tərəfindən öhdəliklərin yerinə yetirilmədiyi halda, DTİHB məsləhətləşmələr aparmalı idi. Lakin o, bunu etməyib və özbaşına qərar qəbul edib. Biz rəqəmləri, metodologiyanı, məhdudiyyətləri və digər məsələləri bir kənara qoyuruq. Biz mandatın pozulması ilə bağlı məsələ qaldırırıq. Həmçinin məlumat almışıq ki, müvafiq qərar qəbul edilməzdən öncə DTİHB Sədrliklə bu barədə məsləhətləşmə aparıb. Lakin biz Sədrlikdən bu qərarın qəbul edilməsindən öncə məsləhətləşmələr aparılıb-aparılmadığı barədə cavab almamışıq. Nəhayət, biz DTİHB-nin ATƏT-ə üzv dövlətlərin gözləntilərinə əməl etməli olduğuna inanırıq".

### Azərbaycandan ATƏT-ə xəbərdarlıq bəyanatı: "Azərbaycan hazırkı inamsızlıq əsasında əməkdaşlığı davam etdirə bilməz"

Bəyanat müəlliflərinin fikrincə, Azərbaycan hazırkı inamsızlıq əsasında əməkdaşlığı davam etdirə bilməz. Daimi Şura tərəfindən direktor Linkə seçkilərlə bağlı məsələlərlə məşğul olmaq səlahiyyəti verilib. Üzv dövlət tərəfindən öhdəliklərin yerinə yetirilmədiyi halda, o, bu məsələni Şuraya ötürməli idi. Lakin Link bunu etməyib, bu isə mandatın pozulmasıdır.

**Qeyd edək ki, bir müddət öncə Azərbaycan tərəfi ATƏT DTİHB-nin seçkilərə 400-ə yaxın müşahidəçi göndərmək istəyini mənfi dəyərləndirib və qurumun bu sayda müşahidəçilərini ölkədə qarşılamağa, yerləşdirməyə hazır olmadığını bildirib. Bundan sonra sözügedən təşkilat seçkiyə müşahidəçi göndərməmək qərarına gəlib.**

❑ Etibar SEYİDAĞA

# Sabah Müsavat mitinq keçirəcək

## Seçki kampaniyasında keçirilən yeganə mitinq kimi tarixə düşəcək mitinqdə İsa Qəmbərin seçicilərlə görüşü olacaq

**Müsavat Partiyası 25 oktyabr saat 15:00-dan 17:00-dək Bakı şəhəri, Yasamal rayonu, M.Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul" stadionu) mitinq keçirəcək. Bakı Şəhər İcra Hakimiyyətinin razılıq verdiyi mitinqin həm də Müsavatın 15 saylı Yasamal seçki dairəsindən deputatlığa namizədi İsa Qəmbərin seçiciləri ilə görüşü olduğunu da söyləmək mümkündür. Qeyd edək ki, mitinq keçiriləcəyi meydan 15 saylı dairədən deputatlığa namizədlərin açıq havada seçicilərlə görüş keçirməsi üçün ayrılıb.**




Bu baxımdan oktyabrın 25-də keçiriləcək mitinq 15 saylı Yasamal Seçki Dairəsindən deputatlığa namizəd İsa Qəmbərin seçicilərlə görüşü olmaqla yanaşı bütövlükdə Müsavat Partiyasının seçicilərlə əsas təmas görüşü kimi nəzərdə tutulub. Müsavatdan verilən məlumata görə, mitinqdə İsa Qəmbər öz seçiciləriIə görüşəcək, eyni zamanda deputatlığa digər namizədlər də orda iştirak edəcəklər.

Qeyd edək ki, bu, seçki kampaniyası konteksində ölkədə keçirilən ilk mitinqdir. İndiyə qədər seçkidə iştirak edən heç bir siyasi qurum və namizəd seçki mitinqini keçirməyib. Böyük ehtimalla Müsavatın 25 oktyabr mitinqi 2015-ci il parlament seçkiləri kampaniyasında keçirilən yeganə mitinq olacaq.

**Müsavat Partiyası Mərkəzi Seçki Qərargahının rəhbəri Gülağa Aslanlı** "Yeni Müsavat"a bildirib ki, mitinqlə bağlı rəsmi hissələr artıq həll olunub: "Biz Müsavat Partiyası olaraq seçicilərin bu görüş-mitinqə gəlməsi üçün lazım olan addımları atırıq. Builki seçkilərə insanlarda inam yoxdur. Ölkədə seçki mühiti də hiss olunmur. Eyni zamanda müstəqillik əldə etdiyimiz vaxtdan indiyə qədər seçkilərdə ilk dəfə olaraq məhz bu ilki seçkidə efirdə debatlara imkan verilməməsi ölkədə seçki mühitini sıfır səviyyəsinə endirib. Bu, o deməkdir ki, hakimiyyət demokratik seçki keçirmək istəyində deyil. Seçkiyə maraq o qədər ölüb ki, hətta maddi imkanı olanlar belə, pullu efir vaxtından istifadə eləmirlər. Seçkiöncəsi ölkədə bir gərginlik də hiss olunmaqdadır. Xüsusən də MTN-də baş verənlər insanlarda həm gərginlik, həm də maraq oyada bilib. O baxımdan da biz 25 oktyabr görüş-mitinqinə çoxlu sayda insanların qatılacağını düşünürük".

**G.Aslanlı onu da dedi ki, mitinqin təhlükəsizliyini təmin eləmək birbaşa hüquq-mühafizə orqanlarının işidir:** "BŞİH bizim bu mitinq üçün müraciətimizə müsbət cavab verəndən sonra yəqin ki, Bakı polisinə də mitinqin təhlükəsizliyinin qorunması üçün məlumat verib. Oktyabrın 23-də mən mitinq təşkilatçısı olaraq Bakı Şəhər Baş Polis İdarəsinə dəvət edildim və İdarədə mitinqin təhlükəsizliyi məsələləri ilə bağlı anlaşdıq. Polis mitinqin təhlükəsizliyini qoruyacaq. Biz də əlimizdən gələni edəcəyik ki, mitinqdə qanundan kənar hər hansı hallara yol verilməsin. Amma belə halların qarşısını almaq bilavasitə dövlət orqanlarının vəzifəsidir".

Mitinqdə Müsavatın 25 deputatlığa namizədlərinin hamısının iştirak edib-etməyəcəyinə gəlincə, G.Aslanlı dedi ki, bütün namizədlərə müraciət edilib: "Hansı namizədin həmin vaxtda öz seçki dairəsində vacib görüşü yoxdursa, mitinqdə iştirak edəcək və lazım bilərlərsə çıxış edib fikirlərini bildirə bilərlər. Əsl millət vəkili təkcə öz dairəsinin yox, bütün ölkənin millət vəkili olmalıdır".

**"25 oktyabr mitinqində Müsavatın seçkidən çəkildiyini bəyan etməsi ehtimalı varmı" sualına G.Aslanlı belə cavab verdir:** "Siyasətdə heç vaxt "yox" sözü deyilməməlidir. Amma mən onu güman eləmirəm ki, bu mitinqdə belə bir bəyanat verilsin. Müsavat öz qərarlarını mitinqdə yox, bütün məsələləri müzakirə edəndən sonra Divanda və Məclisdə verir. Müsavat Partiyası seçkidə iştirak haqqında qərarını Məclisdə verib. Məclisdə operativ qərarlar qəbul eləmək səlahiyyətini Divana verib. Ona görə də Müsavat seçki ilə bağlı hər hansı qərarını yalnız Divanda və ya Məclisdə verməlidir".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015

# Deputatlığa namizəddən seçicilərə sensasion çağırış

## **Yusif İlqar oğlu Əliyev:** “Mən digərlərindən yaxşı olmağımla fərqlənirəm”

**Bismillahir Rəhmanir Rəhim! Salam, əziz həmyerlilərim. Mən, Yevlax şəhəri 48 saylı seçki dairəsində deputatlığa namizədliyi qeydə alınmış Yusif İlqar oğlu Əliyev sizlərdən xahiş edirəm, 1 noyabr tarixində seçkilərdə hər biriniz iştirak edin və mənə səs verin. Azərbaycanın yaxşı gələcəyini birlikdə quraq. Mən sizin dəstəyiniz nəticəsində seçildikdə daha böyük imkanlara sahib olacam və dövlətimizdə söz sahibi olacam.**

Bu kimi imkanlardan istifadə edərək sizə daha yaxşı xidmət edəcəm və sizin problemlərinizi həll etmək mənə daha da asan olacaq. Digər namizəd və məmurlardan yaxşı mənada fərqlənirəm. Üstüm cəhətim odur ki, həyatım boyu düzgünlüyün tərəfində olmuşam, verdiyim vədləri yerinə yetirmişəm. Gələcəkdə daha da yüksək vəzifələrdə işləmək və dövləti idarə edən ən qüdrətli şəxslərdən biri olmaq istəyirəm. Ona görə mən bütün imkanlarımdan sizlər üçün xidmət etmək istəyirəm. Sizlərin problemlərini həll edərək dövlətimizin inkişafında mühüm rol oynayaraq sizlərə sübut etmiş olacam ki, həqiqətən də mən digərlərindən yaxşı olmağımla fərqlənirəm. Xalqımın bütün sosial problemlərini həll etməyə çalışacam. Kəndləri qaz, su, elektrik enerjisi ilə normal təminatını, bütün yolların asfaltlaşdırılmasını təmin edəcəm. Heç kəs bu dövlətin diqqət və qayğısından kənarda qalmasın deyə, mən sizin seçdiyiniz, sizi təmsil edən və sizə xidmət edən millət vəkili kimi etimadınızı doğrultmağa çalışacam. Məni narahat edən digər məsələ bizim ölkəmizin islam ölkəsi olmamasına baxmayaraq, müsəlmanların çoxluq təşkil etdiyi islam yönümlü bir ölkədir. Bu bizim bayrağımızda da yaşıl rəng qismində öz əksini tapıb. Hazırda islamın düzgün təbliğ olunmaması nəticəsində islam dini müxtəlif kafirlər tərəfindən parçalandırılır, müsəlmanların birliyi pozulur və nəticədə də müsəlmanlar sünnü, şiə, vəhabi və s. təriqətlərə bölünür. Savadı zəif olan insanları islam dini bəhanəsi ilə terror qruplaşmalarına cəlb edirlər və müsəlmanları bir-birini qətlə yetirəməyə vadar edirlər. Bunun bariz nümunəsi Suriya və yaxın şərq ölkələrini misal göstərmək olar. Bu ölkəmizin təhlükəsizliyinə zərbədir. Çünki bu əlləri qana batmış, çoxsaylı qətllər törətmiş şəxslər hazırda Suriyadan və Ərəb Baharı yaşamış ölkələrdən qaçqın düşən toplumlara qoşularaq sıravi qaçqın kimi Avropa və digər ölkələrdə sığınacaq əldə edirlər və bunun nəticəsində gələcəkdə həmin insanların ölkəmizə qayıdaraq öz cinayətkar əməllərini törətməyindən sığortalanmayıb. Hazırda mən çox nadir hallarda bizim televiziya kanallarına baxıram, çünki avropalaşma adı ilə telekanallarda əxlaqsızlığın təbliğatı gedir. Qısa ətəkli, yarı çılpaq qadınlar, mavilər, özündən qat-qat yaşlı adamlara “sən” deyə müraciət edən tərbiyəsiz və mədəniyyətsiz aparıcıların, qeyrətsizliyin və savadsızlığın təbliğatı edilir. Bunları normal olaraq təbliğ edirlər. Mən istəmirəm ki, mənim övladlarım, yeni nəsillərimiz bunlara normal baxsınlar.

Gələcək nəsillərimiz belə ünsürlərdən qorumalıyıq. Onlar bilməlidirlər ki, bu insanlar yolunu azmış insanlardır. Telekanallarda hər gün 1 və ya 2 saatlıq “İslam Saatı” verilişləri yaratmaq lazımdır. Oraya dini sevən və onu düzgün təbliğ edən savadlı insanları cəlb etmək lazımdır. Quranı oxuyaraq onu düzgün və aydın şəkildə izah etməli və başa salmalıdırlar. İslamın gözəlliyini, paklığını yaymalı və Allahımızın şəriksizliyini təbliğ etməlidirlər. İslamın ən gözəl yol olduğunu yeni nəsillərə təbliğ etməlidirlər. Biz imkan verməməliyik ki, uydurma hədislərlə düzgün islamdan insanları azdırsınlar. Azərbaycanda nə sünni, nə şiə, nə vəhabi təriqətləri olmamalıdır. Bütün müsəlmanlar - Quranda qeyd edildiyi kimi - bir müsəlman olaraq bir-birinə sevgi və hörmət ilə yanaşmalıdırlar. Hicabla gəzmək istəyən xanımlara hörmətlə yanaşılmalıdır. Məktəb, institutlar, dövlət və qeyri-dövlət müəssisələrində xanımlarımız, qızlarımız hicabda rahatlıqla gəzməlidirlər və onlara layiq olduqları hörmət göstərilməlidir. O insanlara hicab qadağası qoymaq istəyən müəssisə rəhbərləri müvafiq qanunvericiliklə cəzalandırılmalıdır. Məktəbli formaları islam dininə zidd hazırlanır. Bununla, müsəlmanlara qarşı haqsızlıq edilir. Üstəlik bizim birbaşa milli simvolu təhqir edilir, çünki bu bayrağımızda islamın öz xüsusi yeri və dəyəri var. Məktəbli formaları islam dininə uyğun da hazırlanmalıdır və uşaqlara seçim imkanları yaradılmalıdır.

***Qeyd:*** *Hicabda yalnız üzün açıq görsənməsi məcbur edilməlidir ki, hicabdan cinayətlər üçün istifadə olunmasın.*

Bədbəxt hadisələr nəticəsində və ya istəmədən ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər üçün həbsxanalarda iş yerləri açılmalıdır ki, onlar həbsdə olduqları dövrdə hər hansı bir peşəyə yiyələnib dövlətə xidmət etsinlər və bunun müqabilində əmək haqqı alsınlar. Bununla azadlıqda olan ailələrini dolandırmaq imkanları əldə etsinlər ki, öz cəzalarını çəkdikdən sonra cəmiyyətin normal üzvü kimi cəmiyyətə qayıda bilsinlər. Gələcəkdə digər cinayətlər törətməsinlər və buna məcbur olmasınlar.

Hazırda hər hansı bir cinayəti törətmiş şəxs həbsxanadan çıxdıqdan sonra törətdiyi cinayət müqabilində cəzasını çəkdiyinə baxmayaraq, onun üçün iş tapmaq həddindən artıq çətin olur. Bu da həmin şəxsləri yenidən cinayət törətməyə vadar edir. Onlar üçün dövlət qayğısı olmalıdır və törətdikləri cinayətdən peşman olmuş şəxsləri dövlət işlə təmin etməli və öz qayğısını onlardan əskik etməməlidir. Azərbaycanda neft və təbii sərvətlərin satışından gələn gəlir birbaşa regionlarda əkin-biçin, fermer təsərrüfatları yaradılması üçün istifadə olunmalıdır. Fermerlərə dövlət faizsiz və uzunmüddətli kreditlər verməlidir. Mən seçildiyim təqdirdə çalışacam ki, Almaniya, İtaliya, Türkiyə və Rusiya kimi inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən şirkətlərin və zavodların filialları Azərbaycanının müxtəlif şəhər və rayonlarında açılsın.



Bununla xalqımız yeni iş yerləri ilə təmin olunsunlar və sadalanan ölkələrdə istehsal olunan və Azərbaycana gətirilən məhsullar birbaşa ölkəmizdə istehsal olunsun. Bununla həm keyfiyyətli və həm də 2 və bəzən də 3 dəfə qiyməti aşağı olsun. Bilənlər bilir, bilməyənlərin bilməsi üçün qeyd etmək istəyirəm ki, mən böyük şəxsiyyət və görkəmli iş adamlarından biri olan, hər zaman xalqına yaxşılıq edən və əlindən gələni xalqın mənafeyi üçün əsirgəməyən İlqar Yusif oğlu Əliyevin oğluyam. Mənim atamı el arasında “Yevlaxlı İlqar” kimi tanıyırlar. Mənim atam Rusiyada, MDB və digər ölkələrdə on minlərlə insanın işlə təmin olunmasını və Azərbaycanlıların təhlükəsiz şəkildə öz ailələrini dolandırmasını təmin edib. Atam hər bir zaman xalqına sadiq olub və xalqına xidmət etməyi özünə borc bilib. Atam kimliyindən asılı olmayaraq problemi olan insanlara problemlərinin həll edilməsində onlara kömək edib. Ona görə milyonlarla insanın sevgisini və hörmətini qazanıb. Məhz bu səbəbdən atamın artan qüdrətini və xalqın ona olan sevgisini görən və onu gözü götürməyən şərəfsizlər tərəfindən atamın qətli sifariş verilib və 19 aprel 2012-ci il tarixində qətlə yetiriblər. Atamın qətlindən sonra Rusiyada kütləvi Azərbaycanlılara qarşı kompaniyalar keçirilməyə başladı. İş o həddə çatdı ki, Orxan Zeynalov adlı Azərbaycanlının Rusiya üçün adi sayıla biləcək bir cinayət törətməsinə baxmayaraq onun saxlanılaraq tutulması prosesini elə şişirtdilər ki, elə bil bir nömrəli cinayətkarı tutublar. Vertolyotla birbaşa Rusiyanın Daxili İşlər Nazirinin qəbuluna gətirərək “Şou” yaratdılar. Ondan sonra Azərbaycanlıların kütləvi şəkildə deportasiyaları həyata keçirildi, azərbaycanlı iş adamlarının sıxışdırılması baş verdi. Bu, birbaşa dövlətimizə böyük zərbəyə çevrilirdi. Nəzərə alsaq ki, iki milyona yaxın Azərbaycanlı Rusiyada yaşayır və orada pul qazanaraq Azərbaycanda yaşayan ailələrini dolandırırlar. Sevindirici hal odur ki, bizim Ümumi Milli Liderimizin siyasətini dəstəkləyən və onun siyasətini düzgün davam etdirən prezidentimiz var. Onun böyük nüfuzu və düzgün atdığı addımları nəticəsində belə kompaniyaların qarşısını alındı. Mən atamın yolunu davam etdirmək istəyirəm. Onun əlaqələrindən istifadə edərək xalqıma xidmət etmək istəyirəm. Türkiyədə, Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada səfərlərdə olanda böyük biznes və böyük kapitalları olan iş adamları ilə görüşlər keçirdim. Onlar mənə bildirdilər ki, mən deputat olduğum və dövlətimizdə söz sahibi olduğum təqdirdə, onlar üst-üstə 1 milyard, 1.2 milyard dollar Azərbaycana sərmayə yatırmağa hazırdırlar. Öz leqal bizneslərini Azərbaycanda quraraq həm yeni iş yerləri ilə təmin etmiş olurlar, həm dövlət büdcəsinə vergi ödəmələri ilə əlavə gəlir gətirmiş olurlar, həm də öz bizneslərini genişləndirmiş olurlar.

Cənab Prezidentimiz gecə-gündüz xalqımızın mənafeyi üçün çalışır, xalqımıza xidmət edir, Azərbaycanımızın Ümumi Milli Liderinin siyasətini davam etdirir, məhz bunun nəticəsidir ki, dövlətimiz bu dərəcədə inkişaf edir. Onun bu şərəfli yolunda biz hər birimiz cənab prezidentimizə dəstək olmalıyıq. Bütün məsələləri Cənab Prezidentimizin üstünə yıxmamalıyıq, hər bir məmur xalqa xidmət edərək xalqımzın güzaranını yaxşılaşdırmalı və dövlətimizin inkişafını təmin etməliyik.

Hazırda dövlət büdcəsi əsasən 18% Əlavə Dəyər Vergisi tutulmaqla formalaşdırılır. Dövlətimizin təbii sərvətlərinin satışından gələn gəlir birbaşa müəssisələrə, biznes sahələrinə yatırmaqla 18% yox, 100% gəlir əldə etmiş olar. Bunun hesabına hazırda 150 AZN olan pensiyanı 4-5 dəfə qaldırmaq imkanı əldə edir. Bunun nəticəsində orta əmək haqqını ən azından 500-1000 AZN etmək mümkündür. Lazım olduğu təqdirdə bunun yollarını mən ətraflı şəkildə izah edə bilərəm. Hüquqşünas olduğuma baxmayaraq, İqtisadiyyat sahəsini də mükəmməl bilirəm. Bu biliklərimdən və öz əlaqələrimdən istifadə edərək xalqıma xidmət etmək istəyirəm. Hər birinizdən xahiş edirəm ki, seçki günü-1 noyabr tarixində keçiriləcək seçkilərdə iştirak edəsiniz və mənə səs verəsiniz. Sizin hər birinizin seçkilərdə iştirak etməyiniz, seçkiləri saxtalaşdırmaq istəyən şəxslərə mane olacaq və sizə layiq olan namizədi seçmiş olacaqsınız.

Biz imza toplayarkən mənim əziz həmyerlilərim mənə müraciət edərək bildirdilər ki, bizim Aşağı Qarxın kəndində təbii qaz çəkilməyib. Məhz bunun səbəbindən uzun illərdir insanlar əziyyət çəkirlər. Məndən xahiş etdilər ki, mən seçildiyim təqdirdə onların bu problemini də həll edim. Mən onlara söz verdim ki, o problemləri həll olunacaq. Sonra mən seçilməyi gözləmədən bu problemin həllini tapması üçün müəyyən qurumlarla və şəxslərlə əlaqə saxladım. Bildirdim ki, bizim cənab Prezidentimiz gecə-gündüz xalqının mənafeyinin yaxşı olması üçün çalışır, dövlətimizin bu dərəcədə inkişafını təmin edib. Bunun sayəsində ölkəmiz inkişaf etmiş Avropa ölkələri ilə müqayisə olunacaq səviyyəyə çatıb. Lakin buna baxmayaraq bizim kəndimizdə təbii qazın çəkilişi indiyədək baş vermir. Şükürlər olsun Allahımıza ki, aidiyyəti qurumlar bu problemin aradan qaldırılması ilə məşğul olurlar və tezliklə Aşağı Qarxın kəndində təbii qaz çəkilərək rayonun qazlaşdırılması baş verəcək.

Cənab Ramiz Mehdiyev bu yaxınlarda bildirmişdi ki, Azərbaycanda cavan, savadli kadrlarin çatışmazlığı vardir. Bəli, Cənab Mehdiyev düz deyir! Məsələ ondadır ki, bu, savadlı kadrlarin olmaması səbəbindən deyil, cavan savadlı kadrlara dəstək olmaq istəyən məmurların yox dərəcəsində olmasından irəli gəlir.

Cənab Prezidentimizdən xahiş edirəm ki, Yevlaxda baş tutacaq seçkiləri öz nəzarətində saxlasın və bu seçkilərin saxtalaşdırılmasına imkan verməsin. Məndə müxtəlif məlumatlar var, lakin sübutlarım yetərincə olmadığından bunları açıqlaya bilmirəm. Bu seçkilərin saxtalaşdırılmasının qarşısını yalnız Cənab Prezidentimiz ala bilər!

Yevlaxlıların onlara layiq olanı seçmək imkanları olmalıdır.

Mən xalqıma xidmət etməklə, xalqımın hörmətini qazanaraq, gələcəkdə daha da böyük vəzifələr daşımaq istəyirəm.

Xalqımın sevgisini qazanaraq, atamın adını, ailəmi daha da hörmətli etmək istəyirəm.

Cənab nazir Ramil Usubovdan da xahiş edirəm ki, mənim təhlükəsizliyimin təmin edilməsində bizə köməklik göstərsin.

YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015



# Tutulanlar artacaqmı, azalacaqmı?

Xalid KAZIMLI

**MTN-də yuva salmış "reket-şantaj çetesi"nin işi ilə bağlı həbs edilənlərin dairəsinin məhdud qalması ictimaiyyətdə narahatlıqla qarşılanır. Həmişə olduğu kimi, yenə də "hər şeyin ört-basdır ediləcəyi" ilə bağlı şübhələr var.**

Gerçəkdən də Baş Prokurorluq tərəfindən verilən açıqlamadan da aydın olur ki, söhbət mütəşəkkil cinayətkarlıqdan gedir. İşdə sabiq nazirin, onun müavinlərinin, idarə rəislərinin adı çəkilir.

Bunlar general, polkovnik rütbəsi daşıyan şəxslərdir, adi adam deyillər. Adi kriminal ünsürlərin təşkil etdikləri mütəşəkkil cinayət qruplaşmaları ifşa olunan zaman həbs edilənlər bundan daha çox olur. Necə ola bilər ki, söhbət general nazirdən və onun general, polkovnik rütbəsi daşıyan adamlarından getdiyi halda ortada cəmi yeddi-səkkiz nəfərin adı var?

Hər halda məhz generallar özləri "Topaz" məntəqəsinə gedib, aylıq 15 min haqq qoymayıblar, bunu edən və ayba-ay gəlib xəracı götürən daha kiçik fiqurlar olub. İş adamlarını intim həyata aid video və fotolarla şantaj edənlər də, bir çox sahibkarları qandallayıb təcridxanaya salanlar da, onların qohum-əqrəbasını soyanlar da polkovniklər özləri olmayıb.

Söz yox, mütəşəkkil cinayət qrupunun başında yüksək rütbəli adamlar durublar, amma bu cinayətləri icra edən aşağı rütbəli işçilər də olub. Hələlik onların həbs edilməsi, zərərsizləşdirilməsi ilə bağlı xəbərlər yoxdur.

Ola bilər ki, hazırda reket-şantaj çetesinin üzvü olan aşağı ranqlı şəxslərin kütləvi şəkildə tutduqları vəzifələrdən azad edilməsi prosesi gedir, amma bu, onları məsuliyyətdən azad edə bilməz. Hər kəs öz əməlinə görə cavab verməlidir, kriminal ierarxiyada tutduğu mövqeyə uyğun olaraq cəza almalıdır.

Artıq ilk günlərdə verilən rəsmi açıqlamalarda adı çəkilən bəzi yüksək rütbəli şəxslərlə bağlı düzəlişlərlə süslənmiş yeni açıqlamalar yayılır. Bu adları o siyahıya kim daxil etmişdi, kim çıxardı, niyə daxil etmişdilər, niyə çıxardılar - bəlli deyil.

İctimaiyyətdə, siyasi fəal dairələrdə belə bir rəy güclənməkdədir ki, istintaq "MTN çetesi" ilə bağlı məsələni dərinləşdirmək, onların bütün cinayətlərini açıb-tökmək niyyətində deyil. Düşünülür ki, bəlli bir mərhələdən sonra istintaq durdurulacaq, çete üzvləri tam zərərsizləşdirildikdən sonra onlara o qədər də ağır cəzalar verilməyəcək, bunun qarşılığında isə onlar ömürlük susacaqlar.

Mahiyyətcə, bu kriminal qruplaşma 10 il öncə ifşa olunan Zakir Nəsirov- Hacı Məmmədov qruplaşmasından daha güclü şəbəkə olub.

Düzdür, 10 il öncəki çetenin ayağında xeyli ölüm işləri və girovgötürmə faktları vardı. Bəlkə MTN çetesinin fəaliyyət dairəsində ölüm işləri olub? Araşdırılmalıdır.

Girov götürməyə gəlincə, təhlükəsizlik zabitlərinin yaratdığı qrupun girovluğunda olanlar qat-qat, hətta yüz qat artıq olub. Özü də Hacı Məmmədov öz girovlarını gizli mənzillərdə saxlayırdısa, MTN çetesinin girovları dövlətin xüsusi mühafizə olunan təcridxanasında saxlanılıb - həm də dövlətin adından.

Bu, onların işini daha da ağırlaşdırır. Ortada dövlətin nüfuzu, MTN-in reputasiyası məsələsi var. Bu şəxslər dövlətin sütunlarından birini sarsıdıblar, təmsil etdikləri strukturun etibarını zədələyiblər.

İndi ortada belə replikalar da var ki, guya başqa nazirliklərdə vəziyyət normaldırmı, onlar xalqı, dövləti talamırlarmı?

Əlbəttə, aşağı-yuxarı hər kəs, az qala hər bir məmur korrupsiya bataqlığının içindədir. Söhbət ondan gedir ki, hər bir dövlətdə elə dərin strukturlar olmalıdır ki, məhz onlar heç bir halda korrupsiyanın qır qazanına girib ləkələnməsinlər və dövləti qoruya, toparlaya bilsinlər. MTN-in vəzifə funksiyalarından biri və ən əsası dövlətin təhlükəsizliyini qorumaqdır.

Ancaq MTN-də yuva salmış çetenin özü digər nazirlikləri, idarələri korrupsiya ilə daha çox məşğul olmağa vadar edib. Onlara xərac verən vəzifəlilər, sahibkarlar heç də həmin pulları öz zirzəmilərində kəsdikləri qəlp pullarla verməyiblər, xalqın cibindən zorla, kələklə çıxararaq, toplayıb, birikdirib çete üzvlərinə veriblər.

**Bu məsələnin bir sonu olmalıdır. Ya dövlət onun əsaslarını sarsıdan şəxsləri ciddi cəzalandırmalı, çeteləri dağıtmalıdır, ya da çetelər xalqı cəzalandıracaq, dövləti dağıdacaqlar.**

# Müxalifət MTN-də baş verənlərdən məmnundurmu?

## Demorkatik düşərgənin susqun mövqeyi müşahidə olunur

**Milli Təhlükəsizlik Nazirliyində baş verən məlum hadisələrdən bir həftə ötür. Bu müddət ərzində ölkə müxalifətinin yaşanan hadisələrlə bağlı susqun mövqeyi müşahidə olunur. Yalnız bəzi mətbuat orqanlarında müsahibə şəklində mövqelər izlədik.**
**Demokratik ölkələrdə dövlət və cəmiyyət üçün əhəmiyyət daşıyan belə hadisələr baş verdikdə, ən çox narahat olan düşərgə müxalifət olur.**



**İqbal Ağazadə:**
"İslahatların müəyyən anonsu kimi düşünmək olar"



**Sərdar Cəlaloğlu:**
"Bu məsələdə İlham Əliyevə iradımız yoxdur"



**Elman Fəttah:**
"Rejimin çətin mərhələyə keçdiyinin şahidi olacağıq"



**Xəzər Teyyublu:**
"Ziyanın yarısından qayıtmaq da bir xeyirdir"

Maraqlıdır, Azərbaycan müxalifəti nə zaman bu susqunluğu pozacaq, yaxud yaşanan hadisələrlə bağlı qəti mövqeyini nümayiş etdirəcək?

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə** hesab edir ki, yekun mövqeyi məhkəmə istintaqı başlayandan və konkret faktlar ortaya çıxandan sonra demək mümkündür: "Yekun sözü məhkəmə istintaqı başlayandan və məhkəmədə məlum olan faktlardan sonra demək mümkün olacaq. Hazırda onu demək mümkündür ki, ölkə başçısının konstitusiyanın müvafiq maddəsi ilə Nazirlər Kabinetinə daxil olan hər hansı bir nazir postuna bir şəxsi təyin etmək və azad etmək kimi müstəsna səlahiyyətləri var. Prezident bu səlahiyyətindən istifadə edərək, yeni kadrlar təyin edib. Sadəcə, proseslər barədə cəmiyyətə geniş məlumat verildikdən və məhkəmə istintaqında üzə çıxan faktlardan sonra danışmaq mümkündür. Hələlik bunu baş verən hadisələr fonunda son günlərdə sahibkarlığa verilən yardım və gömrükdəki yumşalmanı islahatların müəyyən anonsu kimi düşünmək olar. Seçki prosesi ilə bağlı hər kəs dairələrdə işləyir. Buna görə də, baş verənlərlə bağlı hazırda hər hansı bir tədbir keçirməyi düşünmürük. Amma ictimaiyyətə hadisələrlə bağlı geniş məlumat verildikdən sonra bu barədə siyasi partiya olaraq mövqeyimizi ortaya qoyacağıq".

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, MTN-də yaşananlar Elçibəy hakimiyyəti dönəmindən başlayan uğursuz kadr siyasətinin davamıdır: "Bundan qabaq Səfər Əbiyev, Əli İnsanov və Fərhad Əliyev, Heydər Babayev və başqaları ilə bağlı bu tipli hadisələr baş verdi. Elçibəy hakimiyyəti zamanlarında isə Rəhim Qazıyev məsələsi baş verdi. Təyin olunan kadrların sonda rəhbərliyə qarşı çıxmaları seçim edərkən dövlətçilik siyasətinin düzgün aparılmamasıdır. Bu, ümumilikdə idarəetmənin qüsurlarından biridir. Bir təsadüfi adam nazir qoyulur və sonra çıxarılır. Buna nə reaksiya verməliyəm? Azərbaycanda mütəşəkkil dəstə üzvləri həbs olunanda geniş rezanans doğurur. Amma Müdafiə və Milli Təhlükəsizlik Nazirliyindən ondan çox şəxs həbs olundu, gözlənilən reaksiya olmadı. Xüsusilə, müxalifət camiəsində. Həbs edilən şəxsləri vəzifəyə kimlər təyin etmişdi? Gərək vəzifəyə təyin olunan kadrın xalq və dövlət qarşısında xidmətləri olsun ki, o həbs olunanda reaksiya da verilsin. İnsanların xalq qarşısında xidmətləri olmalıdır ki, xalq da onları müdafiə etsin. İndiki nazirlərin hamısı işdən çıxarılsa belə, İlham Əliyevə iradımız yoxdur. Çünki onların xalq və millət qarşısında xidmətləri yoxdur".

**Müsavat başqanının müavini Elman Fəttah** baş verən prosesləri diqqətlə izlədiklərini söylədi: "Hökumətin daxilində gedən prosesləri diqqətlə izləyirik. Gəldiyimiz qənaət odur ki, hakimiyyət daxilində mərkəzəndənqaçma meylləri gücləndiyi üçün iqtidar müəyyən addımlarla iş görüntüsü yaradır. Proseslərə təsir etmək və baş verənləri qabartmaq niyyətimiz yoxdur. Uzun illərin müşahidələri onu göstərir ki, hakimiyyətin idarəetmə sistemi hər hansı bir mexanizmə yox, rəhbərin özünün şəxsi əhval-rühiyyəsinə görə müəyyən edilir. Hər hansı bir şəxsin vəzifədən çıxarılması və dərhal başqa yerə təyin olunması dediklərimizi sübut edir. Rejimin hakimiyyətdə qalması üçün olan imkanlar tükəndikcə mərkəzdənqaçma meylləri sürətlənəcək. Yaxın zamanlarda rejimin çətin mərhələyə keçdiyinin şahidi olacağıq. Hazırda əsas gündəmdə seçkilərlə bağlı baş verən qanunsuzluqlardır. Amma bu hadisələrlə bağlı qiymətləndirmə və müzakirələrin aparılacağı istisna olunmur".

**KXCP sədrinin müavini Xəzər Teyyublu** illərlə yığılan problemlərin sonda hakimiyyətə başağrısı gətirdiyini qənaətindədir: "Utandırıcı haldır. Ölkənin təhlükəsizliyinə cavabdeh olan bir sahənin rəhbərlərinin belə işlərlə məşğul olması ciddi təhlükələrdən xəbər verir. Ziyanın yarısından qayıtmaq da bir xeyirdir. Aparılan bu cür tədbirlər çox istərdik ki, dövlətçiliyimiz üçün uğurla bitsin. Proseslər çox güman ki, davamlı olacaq. Müxalifət olaraq, bu məsələləri müşahidə edirik".

❑ Cavanşir ABBASLI

# Asim Mollazadə Azərbaycanın inkişaf strategiyasından danışdı

**Demokratik İslahatlar Partiyasının sədri, 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçiriləк seçkilərdə 22 saylı Nəsimi İkinci seçki dairəsindən namizliyi irəli sürülmüş Asim Mollazadə seçki kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşünü keçirib.**



Demokratik İslahatlar Partiyasının mətbuat xidməti bu barədə məlumat verib. Qızlar Universitetində baş tutan görüşdə, millət vəkili öz seçicilərinə ötən beş il ərzində parlament fəaliyyəti barədə hesabat verib.

Seçki platformasında prioritet təşkil edən məsələlərə toxunan Asim Mollazadə Azərbaycanın dünyadakı önəmi və inkişaf strategiyası barədə fikirlərini bildirib. Dünyada baş verən proseslər, neftin qiymətlərinin aşağı düşməsi səbəbindən yaranmış böhran, Qarabağ problemi ilə bağlı mövcud vəziyyət, bu müstəvidə ordu quruculuğu, ölkədə məmur probleminin aradan qaldırılması istiqamətində görülən işlər, elektron hökumətin və "ASAN xidmət" sisteminin üstünlükləri barədə fikirlərini seçicilərlə bölüşüb.

Son illərdə Nəsimi rayonunda yerləşən təhsil ocaqlarında aparılan islahatlardan, məktəb və universitetlərin binalarının təmir edilərək təhsil üçün yararlı hala salınmasından, təhsilimizin Boloniya sisteminə inteqrasiyasının əhəmiyyətindən bəhs edib. Azərbaycan gənclərinin humanitar sahələrə daha çox meylli olduqlarını qeyd edən millət vəkili, ölkəmizdə texniki sahənin mütəxəssislərinə, güclü mühəndislərə, İT sahəsinin peşəkarlarına böyük ehtiyac olduğunu bildirib. Ölkə gənclərini peşə seçiminə diqqət etməyə, dünyadakı rəqabətlə ayaqlaşacaq səviyyədə hazırlıqlı olmağa çağırıb.

Seçicilərin təhsil, evlərin sənədləşdirilməsi, gənclərin işlə təmin olunması ilə bağlı suallarını cavablandırıb.

**Seçicilər də öz növbələrində Asim Mollazadəyə həmişə onları maraqlandıran məsələləri parlamentin gündəminə gətirdiyinə görə təşəkkür ediblər. Asim Mollazadənin ölkəmizdə təhsilin inkişafı, səhiyyə sisteminin islahatları, Azərbaycanın maraqlarının beynəlxalq səviyyədə müdafiəsi istiqamətində fəaliyyətini yüksək qiymətləndiriblər.**

❑ Vüqar MURAD

# 1 noyabr 2015-ci ildə keçiriləcək Parlament seçkilərində Ümid Partiyasının namizədlərinə səs verin!

# Sizinləyəm...

*Sizlərə səslənib deyirik, kimsəni düşmən elan etməyən, heç bir Azərbaycanlını keçmişinə, siyasi mənsubiyyətinə, dini baxışlarına, milli tərkibinə görə çeşidlərə bölməyən düşüncə sahibləriyik.*

*Biz bir Ümid qapısıyıq. Dəyişin ki, o Ümid qapısı Azərbaycanımızın üzünə açılsın. Açdığınız qapıda hər birinizi səadət və güvən, sevgi və məhəbbət, firavanlıq və xoşbəxtlik gözləyir!*




## 1 Noyabr 2015-ci ildə keçiriləcək Parlament seçkilərində 92 Saylı Zərdab-Ucar Seçki Dairəsindən Ümid Partiyasının deputatlığa namizədi Ibadova Günel Mahmud Qızı

1981-ci ildə Bakı şəhərində anadan olub.

Nizami rayonu, Keşlə qəsəbəsində yerləşən 201 saylı orta məktəbin məzunudur.

1998-2002-ci illərdə " Odlar Yurdu" Universitetinin hüquq fakültəsində təhsil alıb.

Bir neçə özəl müəssisə və ictimai təşkilatlarda vəkil kimi fəaliyyət göstərib.

Dövri mətbuatda şer, hekayə, esse, bədii tərcümə, siyasi və hüquqi mövzuda bir sıra məqalələrlə çıxış edib.

Azərbaycan Ümid Partiyasının Ali Məclisinin katibidir.

Ailəlidir, iki övladı var.




## 1 Noyabr 2015-ci ildə keçiriləcək Parlament seçkilərində 21 saylı Nəsimi birinci seçki dairəsindən Ümid Partiyasının deputatlığa namizədi Səfərova Günel Məhərrəm qızı

1980-ci il, Bakı şəhərində anadan olub. Orta təhsilini Bakı Avropa litseyində tamamladıqdan sonra Bakı Dövlət Universitetinin hüquq fakultəsinə qəbul olaraq məzun adını qazanmışdır. Tələbəlik illərində geniş və aktiv ictimai fəaliyyətlə məşğul olub. İki ictimai birliyin əsasını qoyaraq sədr vəzifəsində çalışmış, Azərbaycanı Fransa, İngiltərə, Avstriya, Rusiya, Hollandiya, Almaniya, İsveçrə, Norveçdə keçirilən beynəlxalq konfranslarda təmsil etmişdir. Təhsilini başa vurduqdan sonra Vətəndaş Cəmiyyəti Uğrunda İctimai Birlikdə ictimai vəkil, Gənclər Təşkilatlarının Milli Şurasında layihələr üzrə rəhbər , Avrasiya Əməkdaşlıq Fondunda Demokratik Azərbaycanda İslam Proqramının rəhbəri,2010-2014-cü illərdə SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyasında ictimai vəkil və hüquqşünas kimi çalışmışdır.

İş həyatının əsas istiqamətlərindən biri qeyri-formal təhsillə bağlı təlimçilik fəaliyyəti olub. İctimai vəkillik, liderlik, QHT idarəçiliyi mövzularında yerli və beynəlxalq təlimlər keçmişdir. Sosial problemləri əhatə edən hesabatların müəllifidir. Hesabatlar Azərbaycanda uşaq vəziyyətinin təhlili hesabatı, həmyaşıd araşdırması, məişət zorakılığının vəziyyətinin təhlili, gənclərin ictimai iştirakcılığı mövzularını əhatə edib. Günel Səfərova eyni zamanda BMT-nin Gender zəminində zorakılıq proqramının eksperti, Avropa Şurasının Siyasi liderlər məktəbinin məzunudur. Rus, ingilis dilini sərbəst, fransız dilini isə yaxşı bilir.

Evlidir, iki övladı var.




## 1 Noyabr 2015-ci ildə keçiriləcək Parlament seçkilərində 33 saylı Xətai birinci seçki dairəsindən Ümid Partiyasının deputatlığa namizədi Üzeyir Eldar oğlu CƏFƏROV (Ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist və hərbi ekspert)

09 dekabr 1963-cü ildə Lənkəran rayonunun Veravul kəndində sadə fəhlə ailəsində anadan olmuşdur. 1981-ci ildə kənd orta məktəbini bitirdikdən sonra Ukraynanın Lvov şəhərindəki Lvov Ali Hərbi Siyasi Məktəbinin Hərbi Siyası Jurnalistika fakültəsinə daxil olmuşdur. Bu ali məktəbi 1985-ci ildə bitirən ilk Azərbaycanlı hərbi jurnalist zabit kadrı olmuşdur. Keçmiş SSRİ Silahlı Qüvvələrinin sıralarında hərbi jurnalist kimi müxtəlif qəzet və jurnallarda Ukraynanın Kiyev, Belorusiyanın Minsk, Borisov, Moldovanın Tiraspol şəhərlərində, həmçinin Gürcüstanın paytaxtı Tibilisi şəhərindəki Zaqafqaziya Hərbi Dairəsinin gündəlik mətbuat orqanı olan "Leninskoye Znamya" qəzetində əvvəl müxbir, sonra isə qəzetin Azərbaycan Respublikasındakı müxbir məntəqəsinin rəisi kimi xidmət keçmişdir. Azərbaycan xalqı ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra isə, 1991-ci ilin sonlarından xidmətini davam etdirmək üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinə (MN) müraciət edərək xidmətini Silahlı Qüvvələrimizin sıralarında davam etdirmək arzusunda olduğunu bildirmişdir. Onu MN-nin ilk mətbu orqanı olan "XALQ ORDUSU" (indiki "Azərbaycan Ordusu") qəzetinin Baş redaktoru vəzifəsinə təyin etmişlər. Bir müddətdən sonra isə Dağlıq Qarabağda erməni separatçılarına qarşı döyüşlərdə iştirak edən Füzulidəki 702 saylı hərbi hissənin briqada komandrinin Şəxsi heyətlə iş üzrə müavini vəzifəsinə təyin edilmişdir. 1994-cü ildə ordumuzun ən uğurlu əməliyyatının - 23 yaşayış məntəqəsinin erməni qoşunlarından azad olunmasında birbaşa iştrak etmişdir. 1995-ci ilin may ayında, atəşkəs elan olunduqdan bir il sonra xidmət yeri MN-nin Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki 888 saylı əvvəl təlim, sonra isə döyüş briqadasının komandirin Şəxsi heyətlə iş üzrə müavini vəzifəsinə dəyişdirilmişdir. 1997-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya (indiki Prezident yanında İdarəçilik Akademiyasında) Humanitar fakültənin Silsilə rəisi vəzifəsində xidmət etmişdir. 1998-ci ildə MN-nin apardığı əcaib kadr siyasətinə etiraz olaraq ANS TV-nin o vaxtkı "İç Xəbər" proqramında ölkə rəhbərliyinə Açıq Məktubla müraciət edərək öz ixtisası üzrə vəzifəyə təyin olunmasını təkid və tələb etmişdir. Həmin ilin avqust ayında MN-nin Mətbuat Xidmətinin "İctimaiyyətlə Əlaqə və Məlumatın Yayılması" bölməsinin rəisi vəzifəsinə təyinat almışdır. 1999-cu ildə Türkiyənin paytaxtı Ankara şəhərində NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" kurslarını bitirmişdir. 2001-ci ilə qədər MN-nin MX-nin yuxarıda göstərilən vəzifəsində xidmət keçmiş və oktyabr ayında Azərbaycan dövlətinin xüsusi tapşırığına əsasən Ermənistanın paytaxtı İrəvan şəhərinə, İcevana, Eçmədzinə, həmçinin işğal altında olan Laçına, Şuşaya, Xankəndinə 10 (on) gün müddətində xidməti ezamiyyətə göndərilmişdir. Silahlı Qüvvələrimiz və ölkəmiz üçün son dərəcə vacib sayılan hərbi və iqtisadi strateji əhəmiyyətli məlumatların əldə edilməsi tapşırığını yerinə yetirmişdir. 2001-ci ilin noyabr ayından MN-nin Hərbi Elmi Mərkəzinin "Redaktə, Nəşr fəaliyyəti, Elmi informasiya" şöbəsində Baş zabit - Baş elmi işçi vəzifəsində xidmət keçmişdir. Qulluq etdiyi 25 ilə yaxın müddət ərzində hərbi kollektivlərin bütün əməkdaşları arasında özünü təcrübəli, bacarıqlı, savadlı və hazırlıqlı zabit kimi göstərmişdir. 2004-cü ildə MN-nin o vaxtkı rəhbərliyinin kütləvi korrupsiya və rüşvətxorluq, ədalətsiz kadr siyasətinə qarşı etiraz olaraq ordu sıralarından ehtiyata buraxılmış və hal-hazıra qədər də ictimai-siyasi, hərbi jurnalistika, hərbi ekspert fəaliyyəti ilə məşğuldur. Ehtiyatda olan polkovnik-leytenantdır. "Ehtiyatda və İstefada olan Zabitlər" İctimai Birliyinin idarə heyətinin üzvüdür. 2005-ci ildə 73 saylı Lənkəran şəhər Seçki dairəsindən Milli Məclisə deputatlığa namizəd olmuşdur. 1986-cı ildə SSRİ Jurnalistlər İttifaqının, sonra isə Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Müxtəlif səpkili minlərlə irili-xırdalı məqalə və publisistik yazıların müəllifidir. Bir neçə dildə (ukrayna, rus, türk, ingilis dillərində) sərbəst ünsiyyət yaratmağı bacarır.

Ailəlidir, üç övladı və 4 nəvəsi vardır.

**Əlaqə telefonları: (050) və ya (055) 355 34 70.**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015



# Fonoqramla islahat

Zamin HACI
zaminhaci@gmail.com

**90-cı illərin ortaları idi. Prezident Əliyev məmurları yığıb iclas keçirirdi, Gömrük Komitəsinin yaranmasından keçən üç il ərzində idarənin rüşvət bataqlığına dönməsindən danışırdı. Deyirdi bu cür idarədənsə kaş heç onu yaratmazdıq. Kamera önünə komitənin sədri, suç keçisi olmaq üçün yetərincə böyük qabaritlərə malik və daha çox "suç danası" adlandırılmağa layiq Tahir Əliyev çıxır. Tahir müəllimin tarixi çıxışı efirə verilir, bütün Azərbaycan xalqı ekstaza gəlib qarnını tutur, gülməkdən az qalır partlamaya düşsün: "Heydər Əliyeviç, bizim gömrükdə yığdığımız hamısı rüşvət deyil. İçində rüsum da var. Hamısı puldur da, nə fərqi var?".**

Türkün sözü, il 2000. Məşhur "Aeroport müşavirəsi". Yenə sükan arxasında Heydər Əliyevdir. Yenə gömrükdə yığılan saysız rüşvətlərdən, bunun nəinki sahibkarlarımızı, hətta xaricdən gələn iş adamlarını da incidib Azərbaycandan didərgin salmasından bəhs olunur. Prezident ölkəmizə yatırım qoymağa gələn, ancaq Binə aeroportunda gömrükçülərin 100 dollar rüşvət istəməsi üzündən qayıdıb başqa ölkəyə uçan yapon biznesmendən bəhs edir. Deyir ki, o yaponla Avropada bir tədbirdə rastlaşıb, adam şikayət edib. Prezident kütləni idarə eləməyin incəliklərinə yüksək bələdliyini göstərib çıxışını belə pafoslu kədərlə bitirir: "Yazıq yapon"...

Həmin müşavirə gömrüyün təzə rəisi ilə - nəinki Tahir Əliyevi, gələcəkdə çoxlarını qatlayıb cibinə qoyacaq föv-qəltəbii şəxsiyyətlə məzələnməklə də yadda qalır: "Hanı qızıl saatın? Bura ucuz saat taxıb gəlmisən. Hamınız oğrusunuz".

İl 2015. Azərbaycan xalqı gömrük rüsumlarını yumşaldan hansısa yeni fərmandan danışır. Köhnə hamam, köhnə tas. Deyəsən qalaktikamız olan Süd yolu bir gün qara dəliyin içində yoxa çıxacaqdır, lakin biz hələ də gömrükdə rüşvət problemini həll edə bilməyəcəyik. Çox mifoloji bir problem halını almışdır. Sanki sərhəddə əjdaha oturub, qurban tələb edir. Sanki orada yığılan pullar kimə gedir, yığan kimlərdir - heç kim bilmir. Başqa dünya xalqları "toyuq əvvəldir, yoxsa yumurta", "ideya qabaqdadır, yoxsa materiya", "kainat genişlənir, yoxsa daralır" tipli müzakirələr açarkən bizim uca millətimiz "gömrük birinci yaranıb, yoxsa rüşvət", "gömrük generallarının qarnı və boynu yekəlir, yoxsa daralır" tipli elmi mübahisələr etməkdədir. Bu mübahisələrdə işıq ucu görünmür.

Köhnə ilə yenini müzakirə və müqayisə etmişkən (əslində bizdə hər şey Eynşteynin nəzəriyyəsi kimi nisbidir, o cümlədən kiminsə təzə, kiminsə köhnə olması; "yeni yaxşı unudulmuş köhnədir" məsələni də yazaq, lap ağıllı görünək) Milli Təhlükəsizlik Nazirliyi ətrafındakı proseslərə bir vətəndaş etirazımı bildirmək istəyirəm.

Belə olmaz, yoldaşlar. Gör neçə general-mineral tutulub, o boyda nazirlik Qazan xanın obasının kafir hücumundan sonrakı yağmalanmış vəziyyətindədir, lakin biz zəhmətkeşlər hələ də bir normal AzTV süjeti görmürük. Bəs hanı evlərdən çıxan qızıl külçələr, villalar, hovuzlar, qızlar, qızıllar? Belə də tamaşa olar? Xalq təkcə qırmanc və yavan çörək gəvələməklə keçinə bilməz, ona tamaşa da göstərmək lazımdır. Mədəni istirahətimiz, asudə vaxtımızın təşkili lazımdır. Dədə Qorqud demişkən: "Hanı dediyim videoçəkənlər, AzTV-dəki İbrahimlər, İTV-dən İsmayıl Ömərovlar, Qara halqaya salınmalı generallar var ikən, Əcəl aldı, yer gizlədi, Fani efir Nuşirəvana qaldı, Gəlimli-gedimli idarə, son ucu-filan..."

Əylənmək də lazımdır, təkcə kötəkdən həzz almaq düz deyil. 37-ci il repressiyasının qaynar vaxtında Stalin Kremldə gedəndə qabağına aparat işçilərindən biri çıxır. (Soyadı yadımda deyil, olsun İvanov). Stalin bunu görəndə deyir: "Yoldaş İvanov, sizi hələ tutmayıblar?". Adam evə gələndə arvad-uşaqla vidalaşır, bir neçə ay dəhşətlə gözləyir ki, indi gəlib aparacaqlar. Lakin heç kim gəlmir. 42-ci ildə yenə Kremldə rastlaşırlar, Stalin deyir: "Aaa, İvanov, siz hələ azadlıqdasınız?". Bədbəxt İvanov yenə bir neçə ay ürək-göbəyini yeməli olur. Müharibə bitir, 45-ci ildə Qələbə münasibəti ilə Kremldə ziyafət düzəldilir. Stalin çıxış edir, deyir: "Doğrudur, çox çətin günlər gördük, ancaq zarafatımızdan da qalmırdıq". Bu zaman İvanova tərəf dönüb göz vurur: "Düz demirəmmi, yoldaş İvanov?"

**Belə işlər də görülsün, yoxsa indi "muzıkantlar" o tərəfdə çalır, xalq da bu tərəfdə oynamalıdır. Bu iş fonoqramla olmur.**

## MTN-in daha 4 general işdən qovuldu: "təmizləmə" davam edəcək



# Eldar Mahmudovun "brilyant əli" üzə çıxdı

### Ölkə rəhbərliyi MTN-in bütün strukturlarında başlamış yoxlamaların mümkün qədər tez yekunlaşmasını istəyir ki, bu da səbəbsiz deyil - komandada gərginlik pik həddə; MTN-in Səfər Əbiyevi həbs etmək niyyəti olub, amma...; 2 milyard dollar ölkədən necə və hansı yolla çıxarılıb?

**Oktyabrın 17-də nazir Eldar Mahmudovun işdən azad edilməsi ilə başlamış "təmizləmə" Milli Təhlükəsizlik Nazirliyinin bütün strukturlarını əhatə etməkdədir. Baş Prokurorluqda nazirliyin ayrı-ayrı vəzifəli şəxsləri haqqında cinayət işi qaldırılıb, həbslərin davam edəcəyi bildirilir. İstintaq-əməliyyat qrupuna rəhbərlik baş prokurorun müavinin Rüstəm Usubova həvalə edilsə də, məlumatlara görə, əsas iş Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin birinci müavini Bəylər Əyyubova tapşırılıb.**

### "Təmizləmə" və istintaq davam edir

Yeri gəlmişkən, MTN-də əməliyyatlarla bağlı yeni məlumatlar yayılıb. Məlumatlarda deyilir ki, MTN-də xüsusi əməliyyat prezident İlham Əliyev Qazaxıstana getməmişdən öncə, dövlət başçısının birbaşa nəzarəti altında olduqca məxfi şəraitdə hazırlanıb və keçirilməsi üçün uyğun vaxt seçilib.

MDB dövlət başçılarının sammitindən qayıtdıqdan dərhal sonra prezident əvvəl Eldar Mahmudovu Prezident Administrasiyaya çağırtdıraraq, onun rəhbərlik etdiyi qurumda böyük cinayətlərə yol vermiş dəstənin törətdiyi və birbaşa ölkənin maraqları əleyhinə yönəldilmiş fəaliyyətlərini əks etdirən qovluğu ortaya qoyub, onu vəzifəsindən azad etdiyini bildirib və bu məsələdə hesabat verməsini tələb edib. Eyni zamanda, Xüsusi Dövlət Mühafizə Xidmətinə MTN-də və şəhərin bir neçə yerində qəfil əməliyyat keçirmək, artıq əvvəlcədən nəzarətə götürülən şəxsləri saxlanılaraq, istintaqa cəlb edilməsi göstərişini verib...

Məlumata görə, ilkin olaraq məhz o şəxslər saxlanılıblar ki, onların izahat və ifadələri MTN içərisindəki böyük bir qrupun illərlə törətdiyi bütün cinayətlərə aparıb çıxarmaq, onları çözmək imkanı verir və yəqin ki, çox yaxın gələcəkdə daha bir neçə general həbs olunacaq.

Oktyabrın 23-də MTN-də daha bir neçə generalın işdən uzaqlaşdırıldığı məlum olub. Belə ki, Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanov, Baş İdarə rəisi, general-mayor Tarverdi Məmmədov, Baş İdarə rəisi, general-mayor Pərviz Səfərov, Hərbi Hissə komandiri, general-mayor Vüqar Allahquliyev, MTN-nin Hava Limanı İdarəsinin rəisi, polkovnik Pərviz Vəliyev, Kadrlar İdarəsinin rəis müavini, polkovnik Tehran Babatov və Nazirliyin Xətai, Pirallahı, Masallı rayon şöbələrinin rəisləri tutduğu vəzifələrindən azad olunaraq sərəncama götürülüblər.

### İqtidardaxili savaş niyə qızışıb?

"Yeni Müsavat"ın hakimiyyətə yaxın mənbələrdən əldə etdiyi bilgilərə görə, ölkə rəhbərliyi MTN-in bütün strukturlarında başlamış yoxlamaların mümkün qədər tez yekunlaşmasını, qurumun stabil iş rejiminə qayıtmasını və proseslərin səngiməsini istəyir ki, bu da səbəbsiz deyil.

Xəbərlərə görə, MTN-də baş verənlər hakimiyyətin içərisində gözlənildiyindən də daha artıq "bomba partlayışı" effekti yaradıb, "qəlpələri çox adamı yaralayıb", bir sözlə, daxili qruplaşmalar arasındakı gərginliyi pik həddə artırıb. 11 ildir nazir olan və özünə proseslərə təsir edə biləcək şəbəkə yaratmış E.Mahmudovun qəfil sıradan çıxarılması iqtidardaxili balansı başqa oliqarx-qrupların xeyrinə dəyişib, bütün komanda silkələnib. Proseslərin axarından narazı olanlar səslərini çıxarmırlar və özlərini qorumağa çalışırlar. E.Mahmudovdan sitəm görənlər isə sabiq nazirin ən uzaq qohumunun belə vəzifədən uzaqlaşdırılmasını, onun daha sərt cəzalandırılmasını istəyirlər. E.Mahmudovun sıradan çıxarılmasından sonra onun rəhbərlik etdiyi struktur haqda demək olar ki, hər gün yeni-yeni ittihamlar yayılır, yeni faktlar ortaya çıxır.

### Səfər Əbiyevlə MTN-də "kəsişən yollar"...

Oktyabrın 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində sabiq müdafiə naziri Səfər Əbiyevin müavini Mehman Səlimovun cinayət işi üzrə məhkəmədə də Eldar Mahmudova ünvanlı sensasion ittiham səslənib.

**Mehman Səlimov məhkəmədə çıxış edərək MTN-i ittiham edib:** "O vaxt məni MTN-də dindirəndə dedilər ki, Səfər Əbiyevin üzünə dur, mən durmadım. Çünki onu işdən azad edəndən sonra tutmaq istəyirdilər. Mən bunu etmədim, onun üzünə durmadım. Ona görə mənə cinayət işi açdılar".

**S.Əbiyev işdən çıxarıldıqdan sonra Müdafiə Nazirliyində də həbslər başlamışdı və sabiq nazirin də hədəfdə olduğu iddia edilirdi.** Hətta mediada MTN-in S.Əbiyevi ev dustağı etdiyi barədə iddialar da vardı. S.Əbiyevin həbsinin yalnız E.Mahmudovun marağında olduğunu iddia etmək real deyil. Çünki bu cür sanksiyalara MTN rəhbəri heç vaxt təkbaşına qərar verə bilməzdi. Amma nazirlərə aylıq haqq qoyduğu barədə iddialar gerçəksə, belə görünür ki, ölkə rəhbərliyinin yanındakı etimaddan yararlanan E.Mahmudov sabiq müdafiə nazirini bir neçə gün olsa belə MTN zirzəmisində saxlamağa həvəsli ola bilərdi.

Məlumat üçün deyək ki, onların hər ikisi nazir işlədiyi dövrdə bir-birləri ilə münasibətləri "salam-sağ ol" səviyyəsində olub, S.Əbiyev E.Mahmudovun hərbi hissələrə öz adamlarını yerləşdirməklə Müdafiə Nazirliyində baş verənləri nəzarətdə saxlamasından narahat və narazı olub. 2009-cu ildə Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının komandanı Rail Rzayevin qətlindən sonra MTN-in də araşdırdığı cinayət işi ilə bağlı S.Əbiyevə narahatlıq yaradılıb.

### Brilyant biznesini kimin adına çıxırmışlar?

Daha bir ilginc iddia isə MTN-in "brilyant əməliyyatı" ilə bağlıdır. Məlumatlara görə, sabiq nazirin əsas gəlir yerlərindən biri brilyant biznesi olub. Bu fakt bəzi dairələrə çoxdan məlum olsa da, bu biznesi işdən çıxarılanadək E.Mahmudovun nəzarətindən çıxarmaq mümkün olmayıb. MTN əməkdaşlarının aeroportda xüsusilə Dubaydan gələn sərnişinlərin ayaqqabısınadək axtarması yeni xəbər deyil. MTN-in icazəsi olmadan ölkəyə bir karat belə brilyant keçirmək mümkün deyilmiş. Gizli olaraq bu işə girişmək istəyənlərin isə axırı yaxşı olmayıb, aeroportda ələ keçənlərin təkcə gətirdikləri yox, bütün var-dövləti əlindən alınıb. Üstəlik, daş-qaşla ələ keçən adamlara deyilirmiş ki, bu tapşırıq hakimiyyətdəki çox nüfuzlu bir soyaddan gəlib və MTN-in brilyant biznesinə heç bir aidiyyəti yoxdur. Xəbərlərdə deyilir ki, sabiq nazirin bu biznesinə nəzarəti bir neçə gün əvvəl həbs olunan MTN-in idarə rəislərindən birinin müavini Füzuli Ələsgərzadə və MTN-in Hava Limanı İdarəsinin rəisi, polkovnik Pərviz Vəliyev həyata keçirirmiş. Bu biznesdən ildə milyonlarla dolların qazanıldığı da deyilir.

### 2 milyardı necə daşımaq olar?

İşdən çıxarılan və həbs edilənləri daha bir çətin sual da gözləyir. Eldar Mahmudovun Beynəlxalq Bank rəhbərliyində oturmuş qudası səbəbindən hökumətlə problemləri vardı, külli miqdarda kreditin həm də onun razılığı ilə müxtəlif adamlara verildiyi təsdiqlənmişdi. Bu ilin fevralında devalvasiya zamanı bunun baş verəcəyini öncədən bilən Mahmudov qudası, Beynəlxalq Bankın keçmiş prezidenti Cahangir Hacıyevlə əlbir olaraq, təxminən 2 milyard qazanc əldə edib və bu pulları təcili ölkədən çıxarıb ki, "Yeni Müsavat" da bu barədə bir neçə yazı dərc edib. Tanınmış blogger Həbib Müntəzir isə iddia edib ki, bu pullar offşor zonalarda keçmiş nazirə məxsus olan 3 zavod və bir neçə şirkətə köçürülüb. Hazırda keçmiş nazirdən ilk növbədə həmin 2 milyardı qaytarmaq tələb olunur. Ehtimal edilir ki, bu pulları ələ keçməmək üçün ölkədən bank üzərindən deyil, gizli şəkildə nağd olaraq çıxarılıb. Amma hansı yolla, hansı nəqliyyatla və necə çıxarılması sirr olaraq qalır.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015

# Rusiya ilə İran arasında təhlükəli yaxınlaşma - Bakı üçün yeni hədə

## Moskva və Tehran Xəzər dənizini sürətlə hərbiləşdirir; Azərbaycan-ABŞ yaxınlaşması və hərbi əməkdaşlığı zərurətə çevrilir...

**Suriya məsələsində strateji hədəflərin ortaqlığı son vaxtlar Rusiya və İranı xeyli yaxınlaşdırıb. Nüvə dosyesinə görə tətbiq edilən 10 illik beynəlxalq sanksiyaların Tehran üzərindən götürülməsi bu prosesə məxsusi dinamika verib və İranın əl-qolunu açıb, manevr imkanlarını genişləndirib.**

**İki dövlətin ortaq hədəfləri isə Suriyadakı Bəşər Əsəd rejiminə hərbi dəstək, müvafiq surətdə onun silahlı rəqiblərinə (Azad Suriya Ordusu, İŞİD) qarşı mübarizə ilə məhdudlaşmır, həmçinin Yəmən məsələsində, Xəzər hövzəsində Qərbin təsirlərini azaltmaqdan dolayı ortaq maraqlarla diktə olunur. Birgə hərbi təlimlərə, yaxud birgə güc nümayişinə zərurət də öncəliklə sadalanan hədəflərdən qaynaqlanır.**

Oktyabrın 7-də Rusiyanın Xəzərdən İŞİD mövqelərinə doğru qanadlı raketlər buraxması da sözsüz ki, eyni məramdan doğurdu. Bir çox təhlilçilərə görə, bu hadisə həm də Moskvanın Türkmənistan və Azərbaycanın iştirakı ilə reallaşacaq Avropaya doğru transxəzər qaz kəməri layihələrinin əngəllənməsinə yönəlib.

Yəni Rusiya bununla anons vermiş oldu ki, dənizin hüquqi statusu dəqiqləşməyənədək kəmərlərin təhlükəsizliyinə zəmanət vermir. Yeri gəlmişkən, bir neçə ay öncə Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Aleksandr Lukaşeviç Bakı ilə yanaşı, həm də Qərbə ünvanlı belə bir hədəni açıq dilə gətirmişdi. Bildirmişdi ki, transxəzər layihələri bütün 5 xəzəryanı ölkənin razılığı ilə həyata keçirilməlidir.

***

Bu hədə-təhdidlər faktiki surətdə Qərb qaz bazarları üçün Xəzərdən iki marşrut saxlayır - Rusiya və İran. Axır vaxtlar şimal və cənub qonşularımız arasında hərbi əməkdaşlığın Suriya ilə yanaşı, Xəzər hövzəsinə keçirilməsi bu xüsusda diqqət çəkir. Elə dünən İranın Hərbi-Dəniz Qüvvələrinin üç gəmisi Rusiyanın Xəzər sahillərindəki Həştərxan limanına daxil olub.



**Məlumata görə, “Dəmavənd” hərbi gəmisində, həmçinin “Cuşan” və “Peykan” adlı iki raket katerində olan İran hərbçiləri Maxaçkala Xəzər donanmasının nümayəndələri tərəfindən qarşılanıb.**

“Dəmavənd” hərbi gəmisində helikopter meydançasından tutmuş, hava hücumundan müdafiə raketləri və ağır artilleriya silahlarının olduğu bildirilir. “Cuşan” və “Peykan” adlı iki raket katerində isə orta uzaqlığa uça bilən qanadlı raketlərlə təchiz edilib.

**Moskva-Tehran münasibətlərinin istiləşməsi siyasi müstəvidə də müşahidə edilməkdədir.** Məsələn, “Valday” beynəlxalq klubun növbəti sessiyasında Rusiya prezidenti Vladimir Putin Tehrana reverans edərək deyib ki, ABŞ İranın nüvə hədələrindən danışmaqla bütün dünyanı aldadıb, “belə bir təhlükə əslində heç vaxt olmayıb” söyləyib.

***

Xəzərdən gələn yeni təhdidlər ən çox Azərbaycanın köklü maraqları, o sırada onun energetik maraqları üçün real təhlükədir. Bu təhlükəni önləmək, kəmərlərə etibarlı qarant almaq üçün Bakı öz donanmasını gücləndirmək, paralel olaraq və ləngimədən qardaş Türkiyənin də təmsil olunduğu Qərb (ABŞ) təhlükəsizlik sistemində yer almalıdır.

**Politoloq Qabil Hüseynli** də o qənaətdədir ki, Rusiya ilə İranın fəallaşması yeni təhdidlər yaradır: “Bu iki xəzəryanı dövlət Suriya ərazisində birgə fəaliyyət göstərir. Hətta İran Rusiyaya Suriyanı Xəzər dənizindən vurmağa kömək edib. Bütün bunlar dünyada olduğu kimi Xəzər dənizində də vəziyyəti gərginləşdirə və dənizdə hərbi fəallığı artıra bilər”.

Onun sözlərinə görə, Rusiya ilə İranın Xəzərdə və digər regionlarda birgə əməkdaşlığı onların yeni ittifaq yaratdığını ortaya çıxarır: “Bu ittifaq Xəzərətrafı digər dövlətləri şıxışdırıb dənizdə öz hegemonluqlarını yaratmağa yönəlib. Bu isə dənizin siyasi statusuna neqativ təsir etməyə bilməz. Çünki Rusiya-İran birliyinə digər sahilyanı dövlətlərin müdaxiləsi real görünmür. Xəzərin hərbiləşdirilməsində Azərbaycan da maraqlı deyil. Buna görə də Bakı dənizdə hərbi fəallığın artırılmaması ilə bağlı təkliflərini gündəmdə saxlayır”.

***

**Aydındır ki, Rusiya Xəzərə “kənar dövlətlərin nüfuz etməsinə” qarşıdır, eyni zamanda sahilyanı ölkələri “ürkütməmək” üçün onlara formal hərbi əməkdaşlıq təklif edir.** Qərbin sanksiyalarından təzəcə qurtulan İran isə Rusiyanın Xəzərdəki hərbi əməkdaşlıq təklifinə “hə” demək zorundadır. Bu isə Xəzəryanı dövlətləri daha güclü donanma saxlamaya sövq edir.

Belə bir addımı atmağa digər üç xəzəryanı dövlətin hər birinin hüququ var. Çünki hər bir dövlət özünün milli təhlükəsizliyinə qarşı olan hədələrə cavab vermək üçün silahlanır. Nəticə etibarilə bütün bunlar dənizin hərbi gəmilərlə və ağır silahlarla dolması ilə sonuclana bilər.

**Lakin o da var ki, Xəzər dənizinin hərbiləşdirilməsi ətraf dövlətlər üçün əlavə xərcdir - sanksiyalar altında olan Rusiya üçün də, yenicə sanksiyalardan qurtulan İran uçun də, digər sahilyanı ölkələr üçün də. Nə qədər qəribə də olsa hazırda 5 xəzəryanı ölkəni birləşdirən yeganə ortaq məsələ elə budur.**

❑ Siyasət şöbəsi



# “Ankara qətliamını PKK və İŞİD törədib”

**Həmkarlar ittifaqlarının konfransında çıxış edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib ki, 10 oktyabrda Ankarada baş verən terror aktını İŞİD və PKK təşkil edib.**

Avropa.info xəbər verir ki, Ərdoğana görə, bir-biri ilə barışmaz mövqedə dayanan iki düşmənin eyni terror aktında iştirakı onunla izah olunur ki, əməliyyat Suriya kəşfiyyatı “Müxəbərat”, Əsədin xüsusi xidmət orqanları tərəfindən idarə olunub.

Xatırladaq ki, 102 nəfərin öldüyü 10 oktyabrda baş verən partlayış Türkiyənin tarixinin ən qanlı terror aktı kimi tarixə keçmişdi.

# İrqçi Köçəryanın layiqli davamçıları



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Ermənistanda güneyli azərbaycanlını öldürdüyü üçün ömürlük həbs cəzası almış Soqomon Köçəryan ad-soyadlı birisi azad edilib. Qarabağda Azərbaycan xalqına qarşı döyüşmüş bu “veteran-qatil”in azərbaycanlılara qarşı nifrəti görünür atəşkəs dövründə də azalmayıb və 1995-ci ildə o, İrəvanda iranlı azərbaycanlını qətlə yetirib.**

Güman ki, daha çox Tehranın siyasi iradəsi əsasında (axı, İran Ermənistan üçün hələ də xaricə açılmış yeganə nəfəslik rolundadır - Z.S.) ömürlük həbsə məhkum olunan cani 20 il sonra məhz Ermənistan hakimiyyətinin rüxsəti ilə azadlığa buraxılıb.

Məlumata görə, düşmən ölkədə bununla ilk dəfə ömürlük məhbus azad edilib - özü də bu türk qatilinin bədxassəli, sağalmaz heç bir mərəzi-filanı olmaya-olmaya. Erməni mediası yazıb ki, o, yalnız ürək xəstəliyindən əziyyət çəkir.

Beləcə, Ermənistan ən azı, postsovet məkanında daha bir bəd ilkə imza atıb - məhz azərbaycanlını öldürdüyü üçün erməni qatil ömürlük cəzadan azad edilib. O zaman neçə ildir Ramil Səfərovun “saqqızını” çeynəyən, beynəlxalq hüquqdan-zaddan dəm vuran bu “əzabkeş xalq”ın nümayəndələri nədən ermənini öldürən - həm də haqqına öldürən - azərbaycanlı Səfərovun Macarıstandan öz vətəninə ekstradisiyasını indiyədək həzm edə, onu bağışlaya bilmirlər görəsən?

Ermənilər belədir - öz adlarını başqalarına qoyub mələksima kimi görünməyi sevirlər. Onların türklərə patoloji nifrətin isə yəqin ki, “Ginnesin rekordlar kitabı”na, Ümumdünya Səhiyyə Təşkilatının isə qəribə və çarəsi tapılmayan xəstəliklər reyestrinə düşüb.

Söz düşmüşkən, qatil Soqomon Köçəryanın soydaşı və familiyadaşı - Xocalı hərbi canisi Robert Koçəryan illər öncə, Ermənistan prezidenti qismində Avropa Şurası Parlament Assambleuasında çıxış edərkən belə bir irqçi və faşist mahiyyətli fikir söyləmişdi ki, “ermənilər və azərbaycanlılar genetik cəhətdən bir-birinə uyğun olmayan millətlərdir”.

Ermənistanın ali rəsmi şəxsinin - dövlət başçısının dilindən çıxan bu bəyanat şəksiz ki, Ermənistan adına, erməni xalqı adına rüsvayçı bir insident, uzun müddət silinməyəcək bir ləkə, bədnam ilk idi. Eyni zamanda qonşu ölkədə hakimiyyəti ələ keçirmiş Xocalı hərbi canilərinin, türk körpə qatillərinin antibəşəri xislətini əyani nümayiş etdirən mövqe idi.

Niyə görə “uzun müddət silinməyəck”? Ona görə ki, irqçiliyin çoxdan aradan qalxdığı XXI əsrdə faşist Köçəryanın həmin sərsəmləməsinə Ermənistanda, Dağlıq Qarabağda etiraz edən tapılmadı, erməni ictimai-siyasi, ekspert dairələrindən, mədəni-ziyalı kəsimindən, demək olar, səs çıxmadı!

İndi belə bir millətlə qonşu olmağın iki türkdilli dövlət üçün nə demək olduğunu təsəvvürə gətirin. Bunu yəqin ki, bir biz bilirik, bir də - Allah. Nə etməli, Azərbaycanın və Türkiyənin qismətinə də bu cür mənfur, təfəkkürü xəstə qonşu düşüb. Hansı ki, 27 ildir (əslində 100 ildən çoxdur) torpaq xülyası ilə yaşayır və bu müddətdə nə o torpağı de-yure ələ keçirə, işğalı rəsmiləşdirə bilib, nə də özü ağ günə çıxıb. Nə Ermənistanı əkib-becərə, dirçəldə biliblər, nə də işğal altındakı Dağlıq Qarabağı.

Beləcə, 25 ildir ermənilər Güney Qafqazda rusun maşası rolunu ifa edir, öz xalqına da, bölgənin digər xalqlarına da gün verib işıq vermir. Dəfələrlə yazılıb, bir daha yazaq ki, bu vəziyyətə görə həm də xristian dünyası, ələlxüsus Qərb, Rusiya günahkardır.

Çünki ermənilər məhz din birliyi, gizli-açıq xristian təəssüblkeşliyi hesabına “ərköyün işğalçı”ya çevriliblər. Əksinə, tutaq ki, Azərbaycan xristian ölkəsi, təcavüzkar Ermənistan müsəlman ölkəsi olsaydı, ona bunca dözüm, laqeydlik göstərərdilərmi? İşğal on illərlə uzanardımı?

**Cavab hamıya aydındır yəqin ki.**

**P.S.** *Bəzi məlumatlara görə, Moskva irqçi Köçəryanı siyasi hakimiyyətə qaytarmağa hazırlaşır. Hərçənd, hazırkı prezident Serj Sərkisyan da onun bir tayıdır...*

YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015

# “İndiyədək MTN-ə bir qəpik də rüşvət ödəməmişəm”

## Hacı İbrahim Nehrəmli: “Mənim kimi adamın Beynəlxalq Banka girişinə qadağa qoyulub”

**“Xəzər adaları” layihəsinin müəllifi, “Avesta Konsern”nin rəhbəri, tanınmış iş adamı Hacı İbrahim Nehrəmli “Yeni Müsavat” qəzetinə müsahibə verib.**

O bildirib ki, “Xəzər Adaları” ilə bağlı görüşlər üçün seçdiyi nümayəndə heyəti artıq Çin Xalq Respublikasındakı işlərini bitirmək üzrədirlər. Hacı İbrahim qeyd edib ki, nümayəndə heyəti daha sonra layihə üçün müqavilələr bağlamaq məqsədi ilə Honkonqa səfər edəcəklər:

***- Xaricdən nə qədər kredit ala biləcəyiniz gözlənilir?***

- Hələ ki danışıqlar 3 milyard ətrafında aparılır. Lakin digər dörd qrupla da görüşlərimiz başlayıb. Daha böyük məbləğdən də söhbət gedə bilər. Onlardan biri ilə müqavilənin bağlanması çox realdır. Görüşlər 1 noyabr tarixindən başlayacaq. Bakıda olsam da oradakı görüşlərlə bağlı nə lazımdırsa, edirəm.

***- Müqavilə bağlayacağınız şirkət hansıdı?***

- Hələ ki bəzi işlərlə bağlı bu şirkətin adını açıqlamasaq daha yaxşı olar. Heç kim istəmir ki, ona kredit gəlsin, işi düzəlsin. Paxıllıqla hərə bir məlumat yazır göndərir. Bunun nə üçün belə olduğunu başa düşmürəm.

***- Sizin şirkətdə çalışıb əmək haqqı ala bilməyənlər şikayət edirdilər. Onların əmək haqqını verdinizmi?***

- Bəli, artıq əmək haqlarını da verməyə başlamışıq. Misal üçün, bizim sürücülər üçün 170 min manat əmək haqqımız qalmışdı. Onun hazırda təxminən 60-70 min manatı verilib. Növbəti həftələrdə isə tam şəkildə sürücülərin əmək haqqını verməyi düşünürük. Heç kimin haqqı bizdə qala bilməz.

***- Ölkə başçısı İlham Əliyev 22 oktyabr tarixində gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında fərman imzaladı. Bir iş adamı kimi bu fərmana münasibətiniz necədir?***



- Cənab prezidentin hər bir fərmanı doğrudan da iş adamları arasında çox müsbət qarşılanır. Təbii ki, bu fərmanlar ölkədə biznes mühitinin yaxşılaşdırılması məqsədi ilə verilir. Ola bilər ki, insanları gömrükdə incidirdilər, bunların qarşısı alınacaq. Bu, çox yaxşı bir haldır. Hesab edirəm ki, cənab prezidentin gömrüklə bağlı fərmanı xırda sahibkarların inkişafı üçün daha əhəmiyyətli olacaq. Ancaq onu da deyim ki, gömrükdə iri sahibkarlar heç zaman incidilmir. Mən şəxsən buna rast gəlməmişəm.

***- Neftin qiyməti düşdükdən sonra prezident İlham Əliyev ölkədə sahibkarlığın inkişafına ciddi şəkildə diqqət göstərir. Eyni zamanda ölkədə xeyli məmur var ki, onlar həm də sahibkardırlar. Böyük maraqların toqquşması fonunda sizcə prezident sahibkarlığın inkişafına nail ola biləcəkmi?***

- Öncəliklə deyim ki, məmur bizneslə məşğul olmalı deyil. Bunun qarşısını əvvəldən almaq lazım idi. Əfsuslar olsun ki, bunun qarşısını almadıq. Məmurlar böyük pullar qazandılar. Bu pullarla həm də bizneslərini inkişaf etdirdilər. Biz də məcbur olduq ki, kredit alaq və onların qarşısında rəqabətə tab gətirə bilək. Nəticədə bizim kreditlərin miqdarı artdı. Bu hal eyni zamanda ölkədə biznes mühitini də pisləşdirdi. Əlbəttə ki, neftin qiyməti düşdükdən sonra bu məqama diqqət artdı. Cənab prezident çox yerində qərarlar verdi. Xeyli sayda məmurlar var ki, onlar iş adamlarının işləməsinə imkan vermir. Tutaq ki, mən də ev tikirəm, məmur da. Məmur qanunsuz ödəmələrdən azaddır, ancaq biz iş adamları hamısını veririk. Onların qarşısında tab gətirə bilərikmi? Əlbəttə ki, yox. Bu baxımdan bir daha qeyd edirəm ki, prezidentin fərmanları həm millətin, həm də iş adamlarının xeyrinədir. Düşünürəm ki, ölkə başçısı sahibkarlığın inkişafını istəyirsə, buna yüz faiz nail olacaq. Çünki hər şey onun əlindədir. Hələ ki ölkədə biznes batmayıb. O, biznesi yenidən dirildə bilər.

***- Ölkədə sahibkarların əsas problemini nədə görürsünüz?***

- Sahibkarların əsas problemi odur ki, banklar bu gün bizimlə işləmir. Deyək ki, mənim Beynəlxalq Bankda kreditim var. Bu gün mənə konkret sənəd vermirlər ki, biləm nə qədər borcum var. Dəfələrlə bununla bağlı onlara rəsmi müraciət etmişəm. Deyirlər ki, gəl devalivasiya ilə bağlı sənədə qol çək, ondan sonra deyək ki, nə qədər borcun var. Nəticədə isə mənim kimi iş adamının Beynəlxalq Banka girişinə qadağa qoyulub. İndi cənab prezidentin bunlardan xəbəri yoxdur. Düşünürəm ki, banklar iş adamlarını çağırmalıdırlar. Deməlidirlər ki, sənin, misal üçün, bir şirkətin üzrə 30 milyon borcun var. Bunu nə üçün vermirsən? Mən də deməliyəm ki, biznesin inkişafı üçün kreditə və normal biznes mühitinə ehtiyacım var. Bunu etmək əvəzinə, bizi göndərirlər “Bandotdelə” ki, get orada cavab ver. Orada da deyirlər ki, bizə dəxli yoxdur. Apar əlində olanı sat, borcunun bir qismini ödə. Sən də elə etsən, bir qismin ödəyirsən, müəyyən zaman sonra yenidən borcun əvvəlki həddə çatır. Nəticədə girov qoymağa artıq əmlakın da olmadığı üçün həbs olunursan. Bu cür yanaşma ilə biznesi xilas etmək olmaz. Biznesi xilas etmək istəyiriksə, iş adamlarına münbit şərait yaradılmalıdır ki, onlar bankdan kredit götürüb işini qursun.

***- Bildirilir ki, Beynəlxalq Bankdan kredit götürənlərin əksəriyyətində girov yoxdur. Bu barədə nə deyə bilərsiz?***

- Götürdüyüm kreditlərin qarşılığında artıqlaması ilə girovum var. Ancaq deyilənlər doğrudur. Çox adam girov qoymadan biznes layihələri üçün böyük miqdarda pul götürüblər. O da Cahangir Hacıyevin öz adamlarıdır. Başqa adamlar deyil. Mühafizəçinin, qonşunun və sairə bu kimi adamların adına girovsuz kreditlər yazdırıblar. Bu gün də aparıb həmin pulları xaricə çıxarıblarsa, bunun bizə nə aidiyyatı var? Mən 300 milyonluq girov qoyub, 30 milyon kredit götürmüşəm. Yəni bu, cinayətdir? Sadəcə hamıya eyni gözlə baxıb, hər kəsin adını dələduz qoyuruq. Belə inkişaf etmək olmaz.

***- 17 oktyabr tarixində prezidentin sərəncamı ilə Milli Təhlükəsizlik naziri Eldar Mahmudov vəzifəsindən azad edildi. Daha sonra məlum oldu ki, sahibkarlığın inkişafına mane olan qurumlardan biri də məhz MTN olub. Bununla bağlı münasibətiniz necədir?***

- Məni bir dəfə də olsun MTN-ə çağırmayıblar. Eyni zamanda şirkətimə də heç bir haqq qoymayıblar. Həmçinin ətrafımda olan şirkətlərdən MTN tərəfindən pul istənilməsini eşitməmişəm. Əgər belə bir hal olarsa, konkret açıqlama verərəm. Nə MTN-dən, nə DİN-dən, nə prokurorluqdan bu məsələ ilə bağlı şikayətçi deyiləm.

❑ **Əli RAİS**

# “Şərurlu İsfəndiyar”la Eldar Mahmudovun işbirliyi...

## Şikayətçi “Orxan MMC” şirkətinə hər iki şəxsin şərik olması barədə sensasion iddialar

### **İsfəndiyar Axundov:** “Eldar müəllimin üzünü belə görməmişəm”

**“Azərtikinti ATF” MMC-nin rəhbəri, “Şərurlu İsfəndiyar” adı ilə tanınan iş adamı İsfəndiyar Axundovun** vətəndaşları aldatmaqla bağlı illərdir səslənən ittihamlar səngimək bilmir. “Yeni Müsavat”da bu barədə dəfələrlə xəbərlər gedib. Amma görünən odur ki, insanları evsiz qoyan iş adamının qanunsuzluqlarının qarşısı hələ də alınmayıb.

Əslən Naxçıvanın Babək rayonundan olan Tural Hacıyev növbəti dəfə “Yeni Müsavat”a müraciət edərək, “Şərurlu İsfəndiyar” barədə şok faktlar açıqladı. Şikayətçi iş adamının oktyabrın 17-də vəzifəsindən azad olunan milli təhlükəsizlik naziri Eldar Mahmudovla işbirliyində olduğunu, vətəndaşları aldadan “Orxan MMC” adlı şirkətə indiyə qədər hər iki şəxsin şərik olduğunu söylədi: “2008-ci ilin aprelində ”Azərtikinti ATF” MMC ilə müqavilə bağlayaraq, Xətai rayonu, Telnov küçəsi, 23-47/48 ünvanında inşa edilən binadan ev almaq istədim. Buna görə şirkətə 32 min dollar pul ödədim. Sonradan mənə məlum oldu ki, bu şirkət hazırda sabiq milli təhlükəsizlik naziri olan Eldar Mahmudovla işbirliyindədir. “Orxan MMC” adlı şirkətə Eldar Mahmudovla İsfəndiyar Axundov şərikdir. Şirkətin işlərini həyata keçirən “Şərurlu İsfəndiyar”dır. Hər iki şəxs məni aldadaraq evimi əlimdən aldı. Bu məlumatı məhkəmədə mənə dedilər. Binanın yarısı İsfəndiyar Axundova, yarısı isə Eldar Mahmudova məxsusdur. Amma əmin edirəm ki, bina Milli Təhlükəsizlik Nazirliyinindir. Bunu şəxsən İsfəndiyar Axundovun özü mənə deyib. Bununla bağlı şikayətim əsasında cinayət işi başlandı. Eldar Mahmudovun köməkliyi ilə “Şərurlu İsfəndiyar” cinayət işindən uzaqlaşdırıldı və şirkətin direktoru Azər Quliyev həbs edildi. Aldadıldığımız binanın işinə məhz bu şəxs rəhbərlik etmişdi. Artıq cənab prezidentin sərəncamı ilə Eldar Mahmudov vəzifəsindən azad edilib. Bunu barəsində belə getsə, cinayət işi başlanılacaq. Baş prokuror Zakir Qaralova müraciət ünvanlamışam. Qəzetiniz vasitəsilə, bir daha hörmətli baş prokurorumuzdan kömək istəyirəm. Hörmətli Zakir müəllim, mənə dəyən 32 min dollar zərərin ödənilməsində kömək edin. Eyni zamanda, mənimlə bərabər digər aldadılmış şəxslər də var. Ümidimiz yalnız sizlərədir. Biz Eldar Mahmudov və yaxın qohumu İsfəndiyar Axundovun cinayət məsuliyyətinə cəlb olunmalarını istəyirik".


İsfəndiyar Axundov


Azərbaycan Respublikasının
Baş prakroru Zakir Qaralov
cənablarına N.M.R Babək
rayonu nehrəm kənd sakini
Tural Hacıyev Adəm oğlu
tərəfindən
Ərizə
Cənab Zakir müəllim mən 2008-04-04 tarixdə Azər tikinti A.T.F mmc ilə müqavilə bağlayaraq Bakı Şəhəri xətai rayonu Telnov küçəsi 23.47/48 məhəllə inşa edilən 5 bloklu 16 mərtəbəli yaşayış binası fərdi ev almaq istədim buna görə Azər A.T.F m.mc.-yə 32.000 $ pul köçürdüm sonradan mənə məlum oldu ki, Azər A.T.F mmc-ilə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov şəxsən tabe-
sui istifadə etmə yolu ilə vətəndaşlara və dövlətə vurduğu külli miqdarda ziyana görə Azərbaycan Respublikası Baş prakrorluğda Azərbaycan Respublikası cinayət məcəlləsinin müxtəlif maddələrinə cinayət işi başlamış və istintaq aparılır odur ki, sizdən xahiş edirəm emtenin sabiq naziri Eldar mahmudov şəxsən rəhbərlik etdiyi və yaxın qohumu olan İspəndiyar Axundov tərəfindən şəxsən rəhbərlik etdiyi Orxan mmc hüquqi varisi sayiq emtexanın mənə və mənnən başqa bir necə zərər çəkmiş vurduğu külli miqdarda ziyanın müəyyən edilməsi Eldar Mahmudovun və İspəndiyar Axundovun ba-

**Barəsində səslənən ittihamlarla bağlı “Şərurlu İsfəndiyar”ın mövqeyini öyrəndik . O, şikayətçinin ittihamlarının əsassız olduğunu söylədi:** “Bu fikirlər əfsanədir. Eldar müəllimin heç üzünü belə görməmişəm. ”Orxan MMC" deyilən bir şirkət var. Bizim qohumların şirkətidir. Amma mənim deyil".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015


Tamerlan Qarayev

# Tamerlan Qarayevin Bakıya niyə gəldiyi bilindi

## Bayram Səfərov səfirlə görüşündən danışdı

**Azərbaycanın İndoneziyadakı fövqəladə və səlahiyyətli səfiri Tamerlan Qarayevin Bakıya gəlməsi mətbuatda müzakirlərə səbəb olub. Azərbaycan Ali Soveti sədrinin sabiq birinci müavini işləmiş, ölkənin ciddi siyasət adamlarından biri olan T.Qarayevin Bakıda olması təbii ki, diqqətdən kənarda qala bilməzdi. Xüsusilə də ölkəmizdə ciddi hadisələrin baş verdiyi zamanda, üstəlik, diplomatik korpusdakı sensasion hadisələrin fonunda diplomatın Azərbaycana gəlməsi müxtəlif söz-söhbətlərə səbəb olub.**

Qeyd edək ki, səfir təyinatından əvvəl T.Qarayev qarabağlıları bir araya gətirmək üçün təşkilat da yaratmışdı və xeyli insanı ətrafına cəlb etmişdi. Bu mənada onun hər gəlişi az qala hadisə kimi qarşılanır, hansısa proseslərin başlanğıcı kimi yozulur. Yayılan məlumata görə, Tamerlan Qarayev Xocalıdan olan şəhid ailələri ilə görüşüb. Səfirin şəhid ailələri ilə görüşü Dağlıq Qarabağın Azərbaycanlı İcmasında baş tutub. Görüşdə Dağlıq Qarabağın Azərbaycanlı İcmasının sədri, Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov da iştirak edib.

T.Qarayevlə görüşmək, heç olmasa telefonla danışmaq üçün gün ərzində çox cəhd göstərsək də, bu, mümkün olmadı. Səfir üçüncü şəxsin vasitəsilə üzrxahlıq edərək danışa bilməyəcəyini söylədi.

XİN-dən də səfirin gəlişinin məqsədləri barədə konkret münasibət öyrənə bilmədik. Sadəcə bildirildi ki, İndoneziyadakı səfirimiz işini davam etdirir, rotasiya məsələləri isə prezidentin müstəsna səlahiyyətindədir.

Teleqraf.com-un xəbərinə görə, T.Qarayevin Bakıya gəlişi səbəbsiz deyil. Belə ki, səfir İndoneziya Respublikasının İnsan Hüquqları üzrə Milli Komissiyasının sədri Nur Xolisin rəhbərlik etdiyi nümayəndə heyətini müşayiət edir. N.Xolisin Bakıya səfərində isə əsas məqsəd Xocalı soyqırımının araşdırılması, bununla bağlı təsdiqləyici faktların toplanaraq dünyaya tanıdılmasından ibarətdir. İndoneziyalı qonaq bunu oktyabrın 21-də xarici işlər nazirinin müavini Xələf Xələfovla görüşündə özü bildirib. Həmin görüşə dair Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı fotoda T.Qarayevin nazir müavini Xələf Xələfovun yanında əyləşdiyi görünür. Onu da qeyd edək ki, yüksək vəzifəli şəxslərin səfərləri zamanı səfirlərin onları müşayiət etməsi adi haldır. Bu, dövlətlərarası münasibətlərdə qəbul olunmuş bir qaydadır.

Dağlıq Qarabağın Azərbaycanlı İcmasının sədri Bayram Səfərov "Yeni Müsavat"a dedi ki, T.Qarayev İndaneziyanın Ombudsmanını müşayiət edib: "Ombudsman Xocalıdan sakinləri ilə görüşmək istəyib. Tamerlan müəllim də həm tərcüməçi kimi, həm də qarabağlı kimi görüşə qatılmışdı". İcma rəhbəri dedi ki, hələlik T.Qarayev Bakıdadır: "İndoneziyadan gəlmiş nümayəndə heyətinin görüşləri var idi. Əvvəl İcmada görüş keçirtdilər, sonra Xocalı sakinləri ilə. Ölkə prezidentinin göstərişi ilə Xocalıda hər iki valideynini itirən Xocalı uşaqlarına mənzillər verilib". B.Səfərov T.Qarayevin Bakıda olmasını təəccüblü saymadı: "Hər il Bakıya gəlir, Vətəni unutmur". İcma rəhbəri səfirlə həmsöhbət olduğunu da vurğuladı: "Mən Tamerlan müəllimi indi tanımıram ki... Onu neçə illərdir tanıyıram. Ona münasibətim çox yaxşıdır. Özü də kimin mənə münasibəti necədirsə, mənim də münasibətim adekvatdır. Tamerlan müəllimlə də normal münasibətlərimiz var". B.Səfərov T.Qarayevin söhbət zamnaı gələcək palnları barədə hər hansı bir söz deməyini də qeyd etdi.

**Tamerlan Qarayev 1991-1993-cü illərdə Milli Məclis sədrinin müavini, daha sonra isə birinci müavini vəzifələrində işləyib. Azərbaycan Xalq Cəbhəsi (AXC) hakimiyyətdən devrləndən sonra Tamerlan Qarayev diplomatik fəaliyyətə başlayıb. O, Azərbaycanın 1993-2001-ci illərdə Çindəki, 2004-2011-ci illərdə isə Hindistandakı səfiri diplomatik vəzifəsində işləyib. Tamerlan bəy 2011-ci ildən İndoneziyada səfirdir. Modern.az xəbər verib ki, səfirin oğlu Ruslan Qarayev də atasının yanında - İndoneziyada çalışır. O, SOCAR-ın İndoneziyadakı təmsilçiliyinin rəhbəridir. R.Qarayev əvvəllər Milli Məclisdə işləyib.**

❑ Cavid TURAN

# On min manatlıq vergisiz malı ölkəyə kimlər gətirə bilər...



## Ekspertlər fərmanı fərqli şəkildə izah edirlər; bəziləri bunu iş adamlarına, bəziləri sadə vətəndaşa dəstək hesab edir

**Dövlət başçısının "Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında" imzaladığı fərman ekspertlər tərəfindən fərqli şəkildə dəyərləndirilrər. Milli Məclisin deputatı Vahid Əhmədov məsələ ilə bağlı musavat.com-a bildirib ki, son günlər Azərbaycan hökuməti 9 aylıq hesabatla bağlı keçirilən iclasdan sonra mühüm qərarlar qəbul edib: "Ondan sonra prezident sahibkarlığın inkişafı ilə bağlı çox ciddi islahatlara təkan verdi və bir sıra qərarlar verdi. İki fərman imzaladı.**

İki qərarı biz Milli Məclisdə təsdiq etdik. Prezident yəqin bu günlərdə imzalayacaq. İlk olaraq vergi sistemində dəyişikliklərlə əlaqədar, o cümlədən sadələşdirilmiş verginin məbləğinin artırılması ilə bağlı addım atıldı, dövriyyə artırıldı. İkincisi, əməkhaqqında verginin ödənişi ilə bağlı müəyyən proseslər oldu, məbləğ aşağı salındı. Lisenziyalar ASAN Xidmət Mərkəzinə verildi. Gömrük sistemində də addımlar atıldı, on min manatdan on min dollara yaxın ölkəyə mal gətirənlər rüsumdam azad edildi. Bu, çox əhəmiyyət kəsb edən məsələlərdir. O cümlədən, gömrüklə əlaqədar olaraq verilən qərarlar əhəmiyyətlidir. Mən şimal bölgəsinin deputatıyam. Bu bölgə Rusiya ilə həmsərhəddir, insanlar çox gedib gəlirlər, mal gətirirlər. Bu addım kiçik və orta sahibkarlığın inkişafı üçün müsbət təsir göstərəcək. Həm İran tərəfdən, həm Rusiya tərəfdən gətirilən mallar gömrükdən azad ediləcək, vətəndaşlar üçün vəziyyət yaxşılaşacaq. Bu, böyük inqilabi addımlardır. Əsas onun icrasına nəzarət mexanizmlərinin daha da gücləndirilməsidir. İnsanlar ölkəyə on min manata qədər mal gətirəndə gömrükdə heç bir problem olmasın. Bu məsələlərin yeqin arxası da olacaq. Əsas məqsəd sahibkarlığın inkişafı üçün bütün maneələri aradan qaldırmaqdır".

**Ekspert Qubad İbadoğlu** isə qeyd edib ki, yeni fərman gömrükdə fiziki şəxslərə "yaşıl işıq" yandıracaq: "Dövlət başçısı "Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında" fərman imzalayıb. Fərmana görə, Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan ümumi gömrük dəyəri 10000 ABŞ dolları ekvivalenti məbləğindən artıq olmayan mallar gömrük ödənişi ödənilmədən gömrük sərhədindən keçiriləcək. Bu fərmana qədər ölkəyə gətirilən ümumi gömrük dəyəri 1500 ABŞ dolları ekvivalenti məbləğindən artıq olmayan mallar gömrük ödənişindən azad idi. Mövcud qaydalar dəyişəndən sonra vətəndaşı müşayiət edən hər bir yetkinlik yaşına çatmamış fiziki şəxsə görə əlavə məbləğ 500 ABŞ dollarından 2000 ABŞ dollarına qədər artırılacaq. Amma onu da nəzərə almaq lazımdır ki, bu qaydalar aksizli mallara, avtonəqliyyat vasitələrinə və səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan əşyalara şamil olunmur".

**Ekspertin sözlərinə görə, bu fərmanla gömrüyə bəyan ediləcək məbləğin əvvəlki ilə müqayisədə 6,6 dəfədən çox müəyyənləşdirilməsi sərhəd buraxılış məntəqələrində "yaşıl kanal"dan istifadə edən vətəndaşların sayını və rahatlığını artırmaqla yanaşı, həm də indiyə qədər mövcud olan rüşvət sistemini zəiflədəcək:** "Bu fərman həmçinin fiziki şəxslərin xarici ticarət, xüsusilə də idxal əməliyyatlarında iştirakına stimul verəcək. Hesab edirəm ki, fərman orta və uzunmüddətli dövrdə istehlak bazarında idxal mallarının qiymətlərinin sabitləşməsinə də müsbət təsir göstərəcək. Odur ki, yeni fərmanı təqdir edir və bu istiqamətdə mütərəqqi dəyişikliklərin hüquqi şəxslərlə bağlı gömrük-idxal əməliyyatlarına da şamil olunmasını arzulayıram".

**Ekspert Natiq Cəfərli** isə qeyd edib ki, dövlət başçısının gömrüklə bağlı verdiyi fərman ciddi müzakirələrə, fikir qarışıqlığına səbəb olub: "Bir çox KİV-lər bu fərmanın kiçik və orta biznesə dəstək olduğunu yazırlar. Bu fərmanın kiçik və orta biznesə, sahibkarlara heç bir aidiyyəti yoxdur. Fərmanın özündə açıq-aşkar yazılıb ki, söhbət kommersiya məqsədi olmayan, şəxsi istifadə üçün nəzərdə tutulan mallardan gedir. Bu fərmana qədər 1500 dollara qədər olan icazəli mal daxil olması, 10.000 dollara çıxarılır, bu pozitiv addımdır, vətəndaşlara müsbət təsiri olacaq. Amma ciddi suallar yaranıb. Hər bir vətəndaş ildə neçə dəfə şəxsi istifadəsi üçün 10 min dollarlıq mal gətirə bilər? Əgər bir vətəndaş özü üçün 10 minlik mebel gətiribsə, sonra valideynlərinə, qohumlarına yenə də 10 minlik mebel gətirə bilərmi? Gömrük müfəttişi necə müəyyən edəcək ki, mən 10 minlik mebeli özümə gətirmişəm, ya satmağa? Bu suallara cavab olmasa, gömrükdə müfəttiş-vətəndaş qarşıdurması ərşə çıxacaq. Əgər fərman tam gücü ilə işləsə, Azərbaycanda heç kim mebel, televizor, soyuducu, klima və sairə məişət texnikası almayacaq. Bu isə bir müddət sonra ölkədə bu sahələrdə çalışan iş adamlarının, kiçik və orta sahibkarların dövriyyəsi, qazancı düşəcək, onlar icarə haqlarını, maaşları verə bilməyəcək, bir çoxları öz işlərini qapatmalı olacaqlar. Yəni bu anlamda fərman orta və uzun vədədə iş adamlarına mənfi təsir göstərəcək. Amma qiymətlər də enəcək, sadə vətəndaşlara bu da pozitiv təsir göstərəcək".

**Ekspert İlham Şaban** isə bildirib ki, bizim KİV-lərin bəziləri Azərbaycan oxucusunu bilərəkdən çaşdırırlar: "Məlum fərmanı oxuyaq: "18 yaşına çatmış hər bir fiziki şəxs ölkəyə gömrük rüsumu ödəmədən 10 min manat dəyərində (istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan) mal gətirə bilər". Bunun isə sahibkarlıq fəaliyyətinə aidiyyatı yoxdur. Aidiyyatı olanda isə bir maldan nəzərdə tutulduğundan artıq sayda olanda, müvafiq qaydada gömrük rüsumu ödəməlisən".

❑ RÖYA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015

# Növbəti təhlükəli plan: Qarabağ üçün Rusiyaya birləşmə testi?

## Ekspertlərə görə, Cənubi Osetiya separatçılarının lideri Moskvadan icazə almadan referendum mesajı verməzdi...

**Rusiyanın postsovet məkanındakı müstəqil respublikalardan asanlıqla əl çəkməyəcəyi "Yeni SSRİ" planlarından bəlli olsa da, bu günlərdə Vladimir Putinin SSRİ-nin dağılmasına görə təəssüfünü ifadə etməsi şimal qonşumuzun imperiyanı bərpa etməkdə israrlı olduğunu bir daha təsdiqləmiş oldu.**



Görünür, elə bu səbəbdəndir ki, artıq Moskva separatçı rejimlərin "müstəqilliyi"ndənsə, onları özünə birləşdirmək xəttinə üstünlük verir. Konkretləşdirsək, Putin SSRİ-nin bərpası istiqamətində iki variant üzərində işləyir: Gömrük İttifaqının çevrəsini genişləndirməklə və separatçı rejimləri Rusiyaya birləşdirməklə. Artıq Krım variantı uğurla yekunlaşıb və növbədə Cənubi Osetiyadakı separatçı rejimdir.

Belə ki, bir neçə gün öncə Rusiyanın xəbər lentlərində Azərbaycana da dəxli olan maraqlı bir məlumat keçdi. Orada deyilirdi ki, Gürcüstanın ayrılmaz hissəsi olan **Cənubi Osetiyanın "prezidenti" Leonid Tibilov** bölgənin Rusiya tərkibinə daxil edilməsi üçün referendum təşəbbüsü ilə çıxış edəcək. Bu haqda o, Rusiya prezidentinin köməkçisi Vladislav Surkovla görüşü zamanı bildirib. Onun sözlərinə görə, "Rusiyaya qovuşmaq Cənubi Osetiya xalqının əsrlik arzusudur, hansı ideya ki, gürcü şovinizmi və faşizmi ilə qarşıdurmaya tab gətirib".

**Sitat:** "Bugünkü siyasi reallıq belədir ki, biz öz tarixi seçimimizi edə bilərik. Biz qardaş Rusiya ilə birləşib uzun



**Bayram Səfərov: "O torpaqlar bizimdir, bizim də olacaq; Rusiya da Azərbaycanın ərazi bütövlüyünü tanıyır..."**

əsrlər üçün Cənubi Osetiya və onun xalqının təhlükəsizliyi və çiçəklənməsini təmin eləməliyik".

Separatçı bölgənin "müstəqilliyi" 2008-ci ildə Rusiya ilə Gürcüstan arasında "5 günlük müharibə"dən sonra Abxaziya ilə birgə Moskva tərəfindən tanınıb və hər iki bölgə faktiki, şimal qonşumuz tərəfindən ilhaq edilib. Ardınca isə güclü şəkildə hərbiləşdirilib - Rusiya orada hərbi bazalar qurub, əraziyə ən müasir silahlar və döyüş sistemləri gətirib. Belə olan təqdirdə separatçıların "müstəqillik"dən imtina etməsi suallar doğurur.

Ancaq bizi daha çox maraqlandıran Azərbaycanın torpaqlarının taleyidir. Belə ki, Gürcüstandakı separatçılar Rusiyaya birləşmək arzusuna çatsalar, bu, Qarabağ separatçıları üçün də presedentə çevrilə bilər. Onsuz da vaxtaşırı Dağlıq Qarabağın Rusiyaya birləşdirilməsi zərurəti barədə Rusiya, Ermənistan ekspertləri və Qarabağdakı erməni separatçıları tərəfindən təkliflər eşidilirdi. Dağlıq Qarabağı "müstəqil dövlət" kimi dünyaya həzm etdirə bilməyən ermənilər birləşmə yolu ilə dalandan çıxa biləcəklərini zənn edirlər.

**Doğrudur, prezident Putinin mətbuat katibi Dmitri Peskov** Cənubi Osetiya ilə bağlı belə bir planın olmadığını söyləyib və vurğulayıb ki, Rusiya Cənubi Osetiyanı müstəqil dövlət kimi tanıyır. Ancaq ox yaydan çıxıb. Son vaxtlar Rusiya vətəndaşlarının, konkret olaraq rus milyarder Sterliqovun Şuşada iş yeri açması, burada bir sıra layihələri reallaşdırmağa cəhd göstərməsi Moskvanın hansısa planlarının olduğundan xəbər verir. Üstəlik, Rusiya "sülhməramlı"larını işğal zonasına yerləşdirmək üçün Azərbaycandan razılıq ala bilmədiyi üçün görünür növbəti təzyiq rıçaqlarına əl atıb.

***

Cənubi Osetiyanın Rusiyaya birləşdirilməsi ilə bağlı separatçı qurumun rəhbərinin təşəbbüsü Qarabağın taleyi üçün hansı təhlükə yaradırmı, bu, bir presedent ola bilərmi?

**Siyasi şərhçi Natiq Miri** "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, əslində Rusiya prezidentinin köməkçisi qondarma Cənubi Osetiya prezidenti ilə görüşü çərçivəsində bu fikirləri səsləndirib: "Təbii ki, belə bir fikrin səslənməsi Kremlin icazəsi olmadan mümkün deyildi. Məhz Rusiya prezidentinin tapşırığı əsasında belə bir mesaj verilib. Ancaq məsələnin burdan o tərəfə keçəcəyini düşünmürəm. Çünki indiki şəraitdə Donbas və Krım məsələsi Rusiya üçün ciddi problemə çevrilib. Üstəlik, Suriya məsələsi ilə bağlı Qərb-Rusiya qarşıdurması sürətlə şiddətlənir. Cənubi Osetiyanın, yaxud Abxaziyanın Rusiyaya birləşdirilməsi Rusiya üçün daşıya bilməyəcək bir yük olardı".

**N.Mirinin fikrincə, bu, növbəti siyasi gedişdir:** "Bu, bir növ siyasi manipulyasiya və region dövlətləri üçün təzyiq məqsədi daşıyır. Təbii ki, əgər belə bir hadisə baş verərsə, Azərbaycana da ciddi təhlükə yaradacaq. Yeni Azərbaycana da mesaj xarakteri daşıyacaq ki, Dağlıq Qarabağ əhalisi adından günün birində Rusiyaya birləşmək xahişi hazırlana bilər. Beləliklə, "hüquqi prosedurlar"ın həyata keçirilməsi vasitəsilə Dağlıq Qarabağ da Rusiyaya birləşdirilə bilər. Bu təhlükə həmişə olub, amma indi ortada siyasi reallıq da var. Ona görə də dediyim kimi, bu, bir




manipulyasiya və təzyiq xarakteri daşıyır. Özü də təkcə region dövlətlərinə deyil, həm də Qərb dünyasına təzyiqdir. Bu, Rusiyanın növbəti kələklərindən biridir".

**Politoloq Arzu Nağıyevin** fikrincə, Cənubi Osetiya rəhbərliyi yəqin ki, bu addımı Krım hadisəsi ilə müqayisə edib qərar vermək istəyir: "Ancaq onlar özlərinin müstəqilliyini elan edərək Rusiya və bir sıra separat rejimlər tərəfindən tanıtdırıblar. Bu gün isə söhbət Rusiya ilə bu "müstəqil dövlət"in birləşməsindən gedə bilər ki, bu da yolverilməzdir. Cənubi Osetiya BMT tərəfindən ərazi bütövlüyü tanınan Gürcüstanın tərkibinə daxil olan bir qurumdur və məlumdur ki, Rusiyanı hərbi müdaxiləsi nəticəsində ayrılıb. Eyni zamanda Dağlıq Qarabağ da Azərbaycanın tərkib hissəsidir və bütün beynəlxalq hüquq normalarına uyğun olaraq tanınır və separatçı qurum heç bir dövlət tərəfindən tanınmayıb. Buna görə də Cənubi Osetiya məsələsi Dağlıq Qarabağ üçün hər hansı təhlükə yarada bilməz və təbii ki, presedent də ola bilməz".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** isə hesab edir ki, Rusiya bir əldə bir neçə qarpız tutmağa çalışır: "Ukraynanı parçaladı, Krımı işğal etdi. Nəticədə Ukrayna ilə münasibətləri korlandı və Qərbin sanksiyaları ilə üzləşdi. Daha sonra keçdi Suriyanı bombalamağa və yenə bir sıra ölkələrlə münasibətlərdə problem yaşadı. Çünki Rusiyanın terrorçuları bombalaması sual doğurmaqda, bunun nəticəsində Əsəd ordusunun güclənməsi bir qrup dövlətin maraqlarına cavab vermir".

**E.Şahinoğlu deyir ki, belə bir ərəfədə Kremlin üçüncü istiqamətdə hərəkətə keçməsi, yəni Cənubi Osetiyanın Rusiyaya birləşdirilməsi mövzusunun gündəmə gətirilməsi sualların sayını artırır:** "Birincisi, Rusiya onsuz da Gürcüstanı parçalayaraq Cənubi Osetiyanın və Abxaziyanın "müstəqilliklərini" tanıyıb. Bundan sonra bu separatçı bölgələri Rusiyaya birləşdirmək nəyə lazımdır? Ancaq görünür kimlərəsə lazımdır ki, Cənubi Osetiyanın "rəhbərliyi" bununla bağlı "referendum" hazırlaşır. Yoxsa separatçılar Moskvadan icazə almadan bu işə girişməzdilər. İkincisi, Rusiya Xəzərdən Suriyanı raket atəşinə tutmaqla Qərblə yanaşı, bölgə ölkələrinə də əzələ nümayişi həyata keçirdi. İndi də Cənubi Osetiyanın Rusiyaya birləşdirilməsi mövzusunu gündəmə gətirməklə Qərbin Cənubi Qafqazdakı mövqelərini bir az daha sıxışdırmaq istəyir. Krımı "referendum" yolu ilə işğal edən dövlətin Cənubi Osetiyanı da "referendum" yolu ilə özünə birləşdirməsi təəccüblü olmaz".

**Politoloqun qənaətincə, Rusiya Avrasiya bölgəsində güclü oyunçuya çevrilmək istəyir:** "Məqsəd budur. Cənubi Osetiyanın Rusiyaya birləşdirilməsi mövzusundan Qarabağ separatçıları da istifadə edə bilərlər. Əgər Ermənistan daha çox taqətdən düşsə və Qarabağı qorumaq imkanında olmasa, mən şübhə etmirəm ki, erməni separatçılarının müraciət edəcəyi əsas ünvan Moskva olacaq. Əgər Rusiya Cənubi Osetiyanı özünə birləşdirsə, erməni separatçıları da eyni yola üstünlük verəcəklər. Bax onda Moskva nəyi və kimi seçəcək? Kreml strateji tərəfdaş adlandırdığı Azərbaycanla bütün körpüləri yandırmağa hazır olacaqmı? Bu sual açıq qalır. Rusiyanın "sülhməramlılar" adı altında hərbi qüvvələrini Dağlıq Qarabağda yerləşdirilməsi mövzusuna da bu kontekstdən yanaşmaq lazımdır".

**Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri Bayram Səfərov** isə separatçıların hər hansı cəhdindən narahat deyil: "Bu gün Ermənistan darmadağın vəziyyətdədir. Azərbaycan bölgənin lider dövlətidir, bunu bütün dünya görür. Separatçıların deməyi ilə deyil ki. Bütün dünya Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu birdəfəlik qəbul edir. O torpaqlar bizimdir, bizim də olacaq. Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Belə olan halda Dağlıq Qarabağ Rusiyaya necə birləşə bilər?"

YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015



# Seçki öncəsi siyasətçilər özünü niyə “yığdırır”?

## Plastik cərrah qapısını yağır edən namizədlər, baş nazirlər və deputatlar kimlərdir

**Seçki seçicilərin beyni ilə yanaşı, gözlərini də qamaşdırmaq deməkdir. Sən onlara təkcə sözlərlə yox, eyni zamanda vizual görüntünlə də xitab edirsən. Daha xarizmatik, daha cəlbedici və inandırıcı... Məlum, indi ölkəmizdə də, qonşu Türkiyədə də seçki dönəmidir. Azərbaycanda seçki üzrə texnoloqlara, imicmeykerlərə çox önəm verilməsə də, qonşu ölkələrdə, eləcə də dünyanın inkişaf etmiş ölkələrində seçkiyə gedən siyasətçilər özlərinə diqqət edir, plastik əməliyyata girir, imiclərində dəyişiklik edirlər. “Yeni Müsavat” da mövzunun aktuallığını nəzərə alıb, hansı siyasətçi seçki öncəsi, sonrası... imicində dəyişiklik edib, onunla maraqlandı.**

Başlayaq hazırda dünyanın gündəminə yerləşən plastik cərrahiyyə obyektindən, yəni **Rusiya prezidenti Vladimir Putindən**. Uzun müddətdir ki, başda Rusiya olmaqla dünya mətbuatı Vladimir Putinin silsilə cərrahiyyə əməliyyatları keçirdiyini yazır. Buna səbəb isə onun son vaxtlar cavanlaşan, qırışlardan qurtulan üz dərisi, habelə gümrah üzüdür. Bununla bağlı mütəxəssislər də artıq rəy verib. Onlar bu dəyişikliyin botoksla bağlı olduğunu açıqlayıb. Bu barədə bir qədər sonra...

Hələliksə bu həftə sonu sizə plastik cərrah bıçağının altına “yatan” siyasətçilərin hekayəsindən danışacağıq.

Öncə ondan başlayaq ki, uzun illər müğənnilər, aktyor-aktrisalar, eləcə də siyasətçilər özəl həyatları ilə bağlı açıqlama verməkdə xəsislik etməsələr də, söhbət xarici görünüş, plastik cərrahiyyə əməliyyatlarına gələndə “val”ı dəyişdilər. Çünki bu, heç də hər insanın komplekssiz danışa biləcəyi mövzu sayılmır. Hətta uzun illər öncə Çernomırdin şuntlama əməliyyatı keçirməsini jurnalistlərdən o qədər cidd-cəhdlə saxlayırdı ki, and belə içirdi: “İstəyirsiz, köynəyimi çıxarım, orada bir dənə də tikiş izi görməyəcəksiz. Şərəfimə and içirəm”. Baxmayaraq ki, elə onun öz həkimi qısa müddət sonra xəbəri olmadan bu əməliyyat barədə danışmışdı. Adi bir cərrahi əməliyyatı bu qədər gizlədən siyasət dünyası üçün plastik əməliyyat barədə danışmaq da tabu sayılır.

### Siyasətçilər enerjili olduqlarını sübut etmək üçün plastik cərraha müraciət edirlər

**Rusiyanın məşhur plastik cərrahiyə ustası İqor Korotkiy** deyir ki, ona adətən seçicilərinin xoşuna gəlmək və hələ də enerjili olduğunu sübut etmək istəyən siyasətçilər müraciət edir. Burada isə bir məntiq var: xalqı cavan və əlindən hər iş gəldiyinə inandırmaq. İ.Korotkiy deyib ki, siyasətçi və məmurların ən çox müraciət etdiyi əməliyyat növləri feysliftinq (üz dartılması), liposaksiya (piyin götürülməsi), blefaroplastika (boyun dərisinin dartılması)dır.

Plastik cərrahiyyənin möcüzələrindən ən çox istifadə edən **Ukraynanın keçmiş baş naziri Yuliya Timoşenko** olub. Xanım siyasətçi üz dərisini dartdırıb, bununla da qırışlarını azaldıb. Amma botoksdan istifadə edərək, dərinin daha gümrah görünməsinə də səbəb olub. Bundan sonra onun ağız və göz kənarlarındakı qırışların sayı azalıb. 50 yaşlı Yuliyanın daha cavan görünməsində onun tez-tez kosmetoloq yanına gedib, dərini gəncləşdirən maskalardan istifadə etməsi də rol oynayıb.

Elə Timoşenkoya baxıb həvəslənənlərdən biri də onun ellisi, **Sankt Peterburq qubernatoru Valentina Matvienko** olub. 61 yaşına baxmayaraq, heç vaxt plastik cərrahiyyə əməliyyatı keçirmədiyini deyən xanım qubernatorun yalanını isə yenə jurnalistlər üzə çıxarıb. Onlar qubernatorun əməliyyatdan əvvəl və sonrakı fotolarını ekspertlərə göstərəndən sonra yekun rəy alıblar. Məlum olub ki, əgər dünyada möcüzə yoxdursa, bu qırışlar ancaq üz dərisinin dartılması (feysflistinq) nəticəsində mümkün ola bilər. Ekspertlər bu əməliyyatın 2-3 il öncə edildiyini bildiriblər.

### Siyasətçilər xallarını və qırışlarını yox edir

Kişi siyasətçilər isə üz dərisinə qulluq etmək üçün müalicəvi maska və kremlərdən, habelə mezoterapiya yolu ilə vitaminlərin qəbulundan istifadə edir. Yeri gəlmişkən, Putin də plastik əməliyyatla yanaşı, bu üsuldan istifadə edib. Həkimlər təsbit edib ki, siyasətçilər daha çox seçki öncəsi onlara müraciət edir. Bu zaman isə adətən qırışlardan və üzdəki xallardan qurtulmaq istəyirlər. Həkimlər siyasətçilərin xallarını lazerlə yandırırlar. Bundan başqa, ekspertlər bildirir ki, bir dəfə botoksla cavanlaşmaq istəyən siyasətçi ondan qurtula bilmir. Belə ki, orqanizm 2-3 aydan sonra yenidən botoksa ehtiyac duyur. Həkimlər bunu narkotik asılılığı ilə müqayisə edir və deyir ki, insan özündən asılı olmadan botoks asılılığının qurbanı olur.

Yazının əvvəlində haqqında danışdığımız Putinin plastik cərrahiyyə məsələsini isə artıq bir çox ekspertlər təsdiqləyib. Onlar bildirib ki, əməliyyatdan sonra özünü göstərən üz şişkinliyi Rusiyanın baş nazirində də müşahidə olunub. Amma Putinin boş vaxtı olmadığı üçün əməliyyatdan dərhal sonra ictimaiyyət qarşısına çıxmağa məcbur olub. Halbuki iki günlük üz dincəlməsi Putinin dünya və yerli mətbuatda dilə-dişə düşməsinin qarşısını ala bilərdi. Bundan başqa, əməliyyatın izlərini gizlətmək üçün ilk günlər Putinin dörd qatlı qrimdən istifadə etməsi məsləhət görülsə də, sonuncu bunu “qadın işi” adlandırıbmış. Bu da onun tezliklə özünü ələ verməsinə səbəb olub.

Siyasətçilərin əməkdaşlıq etdiyi, onların ictimaiyyət qarşısındakı imicini müəyyənləşdirmək istəyənlər, yəni imicmeykerlər də onları plastik cərrahlara yönəldənlərin başında dayanır. Müşahidələr onu göstərir ki, imicmeykerlər siyasətçilərin gənc, gümrah görünməsi ilə onun xalq arasındakı reytinqi arasında birbaşa bağlılıq görür. Bu səbəbdən də siyasətçilərlə işləyən hər imicmeykerin etibar etdiyi bir plastik cərrah olur. Bu günə qədər imicmeyker məsləhəti ilə plastik cərrah bıçağı altına girənlər arasında Hillari Klinton, Vladimir Putin, Berluskoni, habelə Ukraynanın keçmiş prezidenti Viktor Yuşşenko da olub.

Xatırladaq ki, sonuncu 2004-cü ildəki seçki kampaniyası dövründə zəhərlənmişdi. Dioksinlə zəhərlənən Yuşşenko bunun izlərini üzündə daşıyırdı. Orqanizmi dioksindən təmizlənən, buzlu suya tez-tez girən eks prezident üzünün əvvəlki görüntüyə qayıtması üçün bir neçə əməliyyat da keçirmişdi.

Dünya mətbuatında isə imicmeykerləri çox vaxt plastik cərrahların “ortağı”, prodüseri adlandırırlar. Belə ki, bu işbirliyi hər iki tərəfə sərfəli sayılır.

### Ən çox plastik cərrah qapısı döyən siyasilər

Dünyanın qadın siyasətçiləri arasında **Hillari Klintonun** adı tez-tez çəkilir. 2011-ci ildə 64 yaşı olan bu xanım öz xalqı tərəfindən keçdiyi həyat yoluna, fədakarlığına görə daim təqdir edilib. İmicmeykerlər müəyyənləşdirib ki, kişi siyasətçilərin dominantıq etdiyi bir mühitdə baş çıxarmağa çalışan Hillari saçlarını qısa kəsdirmək və daim işgüzar geyimdə, ciddi kostyum geyinməklə zəif qadın imicindən qurtulmağa çalışır. Yaşını gizlətmək üçünsə Hillari silsilə əməliyyatlardan keçib. Bunların arasında üz və boyun dərisinin dartılması, blefaroplastika, saysız-hesabsız pilinqlər, botoks və restilayn peyvəndlərinin vurulması xüsusi yer tutur.

Plastik cərrahiyyə və siyasət deyəndə isə İtaliyanın “göz bəbəyi” **Silvio Berluskonini** də unutmaq olmaz. Bu siyasətçinin plastik cərrahlarla tanışlığı sevgililərinə görə sıx olub. İtaliya mətbuatının yazdığına görə, o, bu günə qədər təkcə sevgililəri üçün plastik cərrahlara 1.5 milyon dollara yaxın pul ödəyib. Amma qadın düşkünü kimi tanınan Silvio özü də tez-tez dərisini cavanlaşdırmaq, qırışlarından qurtulmaq üçün əməliyyat masasına yatıb. 2003-cü ildə İtaliya sərhədindəki bir İsveçrə klinikasında plastik əməliyyat keçirsə də, baş nazir uzun müddət bunu boynuna almamışdı. Həmçinin Müəmmar Qəzzafinin də üzündə plastik cərrahiyyə əməliyyatı aparılıb. **Cərrah Liasyar Ribeyro** deyib ki, Qəzzafinin qarnından piy götürüb və üzündəki qırışları bu piyin köməyi ilə düzəldib. Onun başına parik də yerləşdirilib.

Araşdırmalar göstərir ki, son illər plastik cərrahiyyə əməliyyatı keçirənlər arasında kişilərin artması dövrün tələbi sayılır. Artıq kişilər buna görə kompleks keçirmirlər. Bundan başqa, bu cinsin arasında da estetikaya önəm verənlərin sayı artıb. Kişilərin əksəriyyəti - təqribən 80%-i burun əməliyyatları üçün müraciət edirlər. Amma artıq piylənmə, üzün dərisində yaranan qırışlarla bağlı müraciət edən kişilər də var. Ümumiyyətlə, mütəxəssislər burun korreksiyası əməliyyatlarının Qafqazda populyar olduğunu və bunun ərazidə yaşayan insanların ənənəvi üz quruluşu ilə izah edirlər.

**Həkimlərin sözlərinə görə, plastik əməliyyat üçün müraciət edən kişilərin sayının artması bu sahədə informasiyanın çoxalması, eləcə də kişilər arasında bununla bağlı psixoloji maneələrin aradan qalxması ilə bağlıdır. Artıq kimsə öz üz quruluşundan narazıdırsa, bunu dəyişməkdən utanmır.**

❑ **Sevinc TELMANQIZI**



# ƏƏSMN Mingəçevirdə müharibə əlillərinə ev payladı

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi hazır yaşayış binalarından alınaraq təmir etdirilmiş daha 9 mənzili müharibə əlilləri və şəhid ailələrinin istifadəsinə verib. Onlardan 6 ədədi Gəncə şəhərində, 3 ədədi isə Mingəçevir şəhərində qeyd olunan şəxslərə təqdim olunub. Ailə üzvlərinin sayına görə hər biri iki və ya üç otaqlı olan mənzillərdə müasir tələblərə cavab verən yaşayış şəraiti yaradılıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən Musavat.com-a verilən məlumata görə, mənzillərin istifadəyə verilməsi tədbirlərində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İlqar Rəhimov müharibə əlilləri və şəhid ailələrinin rifah halının yüksəldilməsinin, o cümlədən onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasının Azərbaycan Prezidenti cənab İlham Əliyevin sosial inkişaf kursunda mühüm yer tutduğunu diqqətə çatdırıb. Dövlət başçısının 2014-cü il 20 iyun tarixli Sərəncamının bu sahədə mühüm irəliləyişə şərait yaratdığını vurğulayan nazir müavini Sərəncamın icrası işlərinin nazirlik tərəfindən uğurla yerinə yetirildiyini bildirib: “Respublikanın bölgələrində inşa etdirilmiş 375 fərdi yaşayış evlərindən inşası başa çatmış 41 ev və respublikanın şəhərlərində hazır yaşayış binalarından alınaraq təmir etdirilmiş 56 mənzil, yəni 100-ə yaxın mənzil artıq son iki həftədə istifadəyə verilib. Hazırda müharibə əlilləri və şəhid ailələri üçün bölgələrdə fərdi evlərin tikintisi, hazır yaşayış binalarından yeni mənzillərin tender yolu ilə alınaraq təmir etdirilməsi, Bakı şəhərində və ayrı-ayrı rayonlarda çoxmənzilli yaşayış binalarının inşası işləri uğurla davam etdirilir”.

İ.Rəhimov müharibə əlilləri və şəhid ailələrinin Prezident təqaüdü və sosial müavinətlərlə təminatının da mütəmadi olaraq gücləndirilməsindən, bu təminat növlərində təkcə son illər ərzində edilən artımlardan bəhs edib.

Əlil təşkilatlarının nümayəndələri sosial cəhətdən həssas qruplara göstərilən dövlət qayğısının daim artırılmasından razılıqla söz açaraq, dövlət başçısının ölkəmizin dinamik və hərtərəfli inkişafını uğurla təmin edən uğurlu sosial-iqtisadi siyasətinin eyni zamanda hər bir vətəndaşın, eləcə də hər bir əlil və şəhid ailəsinin həyat səviyyəsinin yaxşılaşmasına şərait yaratdığını vurğulayıblar. Tədbirlərdə iştirak edən yerli sakinlər müharibə əlilləri və şəhid ailələrinin daim güclənən dövlət qayğısı ilə əhatə olunmalarının, habelə yeni mənzillərlə təmin edilmələrinin ümumən cəmiyyətimizdə rəğbətlə qarşılandığını qeyd ediblər.

**Yeni mənzillə təmin edilən müharibə əlilləri və şəhid ailələri mənzilə sahib olmağın hər bir ailənin firavan həyatı üçün ən vacib məsələlərdən biri olduğunu və onların istifadəsinə verilən bu gözəl, rahat mənzillərin də yaşayışlarına xeyli rahatlıq gətirdiyini qeyd edərək, belə böyük diqqət və qayğıya, sosial firavanlığın təminatı üçün aparılan fəal və uğurlu siyasətə görə Prezident cənab İlham Əliyevə daim minnətdar olduqlarını vurğulayıblar.**



## Gəncədə aksiya keçirmək istəyən dindarlar saxlanıldı

**Gəncədə dindarların saxlanılmasının səbəbləri məlum olub. Gəncə şəhər Baş Polis İdarəsindən APA-ya bildirilib ki, bu gün bir qrup dindar Şah Abbas məscidinin qarşısında icazəsiz yürüş keçirməyə cəhd göstərib. Hadisə yerinə polis qüvvələri cəlb edilib və cəhdin qarşısı alınıb.**

Polisdən həmçinin bildirilib ki, hadisə zamanı asayişi pozan bir neçə dindar saxlanılıb. Hazırda ərazidə polis əməkdaşları asayişin qorunması üçün tədbirləri davam etdirir.

## Ağsuda qayın yeznəsini güllələdi

**Ağsu rayonunda qətl hadisəsi törədilib. APA TV-nin yerli bürosunun xəbərinə görə hadisə ötən axşam rayonun Kalva kəndində qeydə alınıb. Kənd sakini, 34 yaşlı Elşən Sevdayı oğlu Hacıyev şəxsi münasibətlər zəminində aralarında baş verən dava zamanı Şamaxı rayonunda yaşayan və onun evinə qonaq gələn bacısının həyat yoldaşı, 1975-ci il təvəllüdlü Asif Adil oğlu Zeynalovu öldürüb. Ov tüfəngindən açılan atəş nəticəsində güllə yarası alan Asif Zeynalov hadisə yerində dünyasını dəyişib.**

Asif Zeynalovun qaynı tərəfindən hansı səbəbdən qətlə yetirildiyi hələ ki, tam məlum deyil. Hadisə şahidlərinin sözlərinə görə, onların arasında əvvəllər pul borcuna görə söz-söhbət olub. Elşən Hacıyev hadisə törədən zaman sərxoş olub. Əvvəllər Rusiyada və Azərbaycanda məhkumluq həyatı yaşayan Elşən Hacıyev saxlanılaraq istintaqa təhvil verilib. Onun qətl hadisəsi zamanı istifadə etdiyi ov tüfəngi maddi sübut kimi götürülüb.

Faktla bağlı Ağsu Rayon Prokurorluğu tərəfindən cinayət işi açılıb, araşdırma aparılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Qadını şantaj edən şəxslər tutuldu

**Şəki Şəhər-Rayon Polis Şöbəsinin istintaq və cinayət-axtarış bölmələri əməkdaşlarının birgə keçirdikləri istintaq əməliyyat tədbirləri nəticəsində Şəki sakini, 1994-cü il təvəllüdlü, şərti adı Nigar adlı şəxsin çılpaq fotoşəkillərini yayacağı adı ilə hədələyərək, ona və atasına hədə-qorxu gələrək onlardan pul tələb edən iki nəfər saxlanılıb.**

Saxlanılan şəxslər isə bunlardır: Sumqayıt şəhər sakini Qurbanov Bəhruz Ələddin oğlu və Şəki şəhər sakini Hüseynov Elşən Aydın oğlu. Saxlanılan şəxslər dindirilmə zamanı əməllərindən peşman olduqlarını bildiriblər.

Faktla əlqədar Şəki Şəhər-Rayon Polis Şöbəsində araşdırmalar aparılır (Kanal S (Region TV).

## Bakıda 42 min manatlıq soyğun

**Bakı şəhəri, Narimov küçəsi, döngə 2, mənzil 18 ünvanında yaşayan 52 yaşlı Eldar Məhərrəmov Daxili İşlər Nazirliyinin 102 xidməti ilə əlaqə saxlayaraq evindən 40 min manat dəyərində qızıl-zinət əşyaları və 2 min manat pul oğurlanması barədə məlumat verib. Zərərçəkən Eldar Məhərrəmovun sözlərinə görə oğurluq, o, evdə olmadığı zaman törədilib. Oğrular mənzilə birinci mərtəbənin dəmir barmaqlıqlarını qıraraq daxil olublar.**

Onlar zərərçəkənin evində qonaq olan bacısı qızının da qızıl-zinət əşyalarını götürərək hadisə yerindən uzaqlaşıblar. Cinayət baş verən ünvana gələn Xətai Rayon Polis İdarəsinin əməkdaşları müvafiq ekspertizalar təyin edərək əl-barmaq izlərini götürüblər. Faktla bağlı araşdırmalar aparılır. (Region TV)

## Ağcabədidə itkin düşmüş 3 iş adamından birinin meyiti tapıldı

**Bu il oktyabrın 17-də itkin düşən Ağcabədi rayon sakini Valeh Qanboy oğlu İsmayılovun meyiti Qarabağ kanalının İmişli rayonu ərazisindən keçən hissəsində tapılıb.**

APA-nın yerli bürosunun xəbərinə görə, Valeh İsmayılovun meyiti ailəsinə təhvil verilib.

Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspetriza və Patoloji Anatomiya Birliyinin İmişli rayon şöbəsindən bildirilib ki, meyit müayinə olunub və üzərində heç bir zorakılıq əlaməti aşkarlanmayıb. Mərhumun 6 gün əvvəl öldüyü müəyyənləşib. İlkin ehtimala görə, ölümün səbəbi suda boğulmadır.

Hadisənin qəsd və ya intihar olması araşdırılır.

Qeyd edək ki, Ağcabədidə "Kolxoz bazarı" adlanan yerdə xarici valyutanın alqı-satqısı ilə məşğul olan 1956-cı il təvəllüdlü Valeh İsmayılov oktyabrın 17-də saat 07:40 radələrində evdən çıxıb və geri qayıtmayıb.

Bundan öncə də həmin ərazidə xarici valyutanın alqı-satqısı ilə məşğul olan iki nəfər müəmmalı şəkildə yoxa çıxıb. Rayonun Qaravəlli kənd sakini, 1959-cu il təvəllüdlü Məhərrəmova Fatma Yadulla qızı 2014-cü il avqustun 5-də, Ağcabədi şəhəri, Həzi Aslanov küçəsi ev 14 ünvanında qeydiyyatda olan 1975-ci il təvəllüdlü Vüqar Hümbətovun isə 2015-ci il mayın 27-də itkin düşüb.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34




## "Aztelekom" rəhbərinin oğlu Kiyevdə dəhşətli qəza törətdi

### Maşın yandı, xalası qızı öldü

**Kiyevin mərkəzində Azərbaycan vətəndaşı ölümlə nəticələnən qəza törədib. APA TV-nin məlumatına görə, şəhərin Borispol magistralında "Mercedes" yoldan çıxaraq maneəyə çırpıldıqdan sonra aşıb. Bundan sonra avtomobil yanmağa başlayıb.**

Yanan maşının içərisindəki sürücü və sərnişini yaxınlıqdakı şəxslərin köməyi ilə çıxarmaq mümkün olub. Lakin xanım sərnişin hadisə yerində ölüb. Azərbaycan vətəndaşı olan 20 yaşlı sürücü isə ağır xəsarətlər alıb. Şahidlərin dediyinə görə, qəzaya uğrayan avtomobil yüksək sürətlə hərəkətdə olub. Yaralı sürücü xəstəxanaya yerləşdirilib. Həkimlər onun vəziyyətinin ağır olduğunu bildirir. Hadisəni görənlər qəzada daha bir avtomobilin əzildiyi, həmin maşının qəza yerindən uzaqlaşdığını qeyd ediblər.

Son məlumatlara görə, qəzanı törədən sürücü Araz Məmmədov "Aztelekom" İstehsalat Birliyinin direktoru Məmməd Məmmədovun oğlu, qəzada dünyasını dəyişən isə Məmməd Məmmədovun baldızı qızıdır.

## Tiryəki xurma şəklinə salan adam gömrükdən ilişdi



**Gömrükçülər İrandan Azərbaycana narkotik vasitə keçirmək istəyən şəxsi saxlayıb. Dövlət Gömrük Komitəsindən Trend-ə daxil olan məlumata görə, Biləsuvar Gömrük İdarəsinin "Qoşa Təpə" gömrük postunda İrandan Azərbaycana piyada gələn Azərbaycan vətəndaşı Dünyamalı Qaraşova məxsus idman çantasına baxış həyata keçirilib.**

Baxış zamanı həmin çantanın içərisindəki 2 ədəd xurma qutusunun hər birində, xurmaların arasında, eynilə xurma şəklinə salınmış vəziyyətdə, ümumi xalis çəkisi 775 qram olan narkotik vasitə - tiryək aşkar edilib.

Daha sonra, həmin çantadakı çay qutusunun içərisində olan quru çayın arasında isə sellofan paketdə 94 ədəd metadon adlı həbb aşkar olunub.

Bundan başqa, D.Qaraşovun üzərində şəxsi yoxlama zamanı ondan daha 4 ədəd metadon adlı həbb aşkar edilərək götürülüb.

Xatırladaq ki, metadon adlı həbb "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr"in II Siyahısına daxildir və cəmi 98 ədəd həbbdə metadonun təsiredici maddəsinin ümumi miqdarı 3,92 qram təşkil edir.


**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**

YENİ MÜSAVAT
N 236 (6264) 24 oktyabr 2015

**Bu il payız mövsümündə qəfil düşməsi insanların orqanizmində ciddi fəsadlar yaratdı. Ölkə boyunca infeksion xəstəliklərə yoluxanların sayı artıb. Habelə xroniki ürək-damar sistemi və allergik xəstəlikləri, vitamin çatışmazlığının olan insanların narahatlıqları çoxalıb.**

# Payızın gətirdiyi xəstəliklərdən necə qorunmalı...

## Adil Qeybulla: "Hər şeydən əvvəl dəyişən hava şəraitinə adaptasiya olmaq, ona uyğun geyinmək lazımdır"


Adil Qeybulla

Yoluxucu xəstəliklər daha çox iş yerlərində, kollektiv arasında, məktəblərdə və ya insanların sıx olduğu digər yerlərdə yayılır.

*Bəs bu xəstəliklərdən necə qorunmalı?*

**Tibb elmləri doktor, professor Adil Qeybulla** bildirdi ki, payız mövsümünün gətirdiyi xəstəliklərdən qorunmaq üçün ilk növbədə dəyişən hava şəraitinə adaptasiya olmaz lazımdır: "Hər şeydən əvvəl dəyişən hava şəraitinə adaptasiya olmaq, ona uyğun geyinmək lazımdır. Gün ərzində bəzən olur ki, səhər hava günəşli olur, ikinci yarısında havanın temperaturu birdən-birə dəyişir, aşağı enir. Əgər bu cür havaya uyğun geyinilməyibsə bədənin də temperaturu aşağı düşür və soyuqdəymə baş verir. Nəticədə bir sıra xronki xəstəliklər, məsələn, xronki bronxit, faringit xəstəlikləri fəallaşmaya başlayır.

**El arasında bütün bu xəstəliklər qrip adlanır. Lakin əslində bu qrip deyil.**

Yuxarı tənəffüs yollarında 15-dən çox infeksiya mövcuddur ki, onlar fəallaşanda özünü qrip şəklində büruzə verir. Qrip isə konkret epidemiyaya meylli virusdur. Bu epidemiyalar şəklində baş verir.

Onu da qeyd edim ki, qrip çox pis xəstəlikdir, onun ağır nəticələri ola bilir və ətrafdakı insanları da asanlıqla yoluxur. Buna görə də qripə yoluxan xəstələr mütləq yataq rejimində müalicə almalı və yaxud ictimai yerlərdə, avtobusda və s. yerlərdə xüsusi maskalardan istifadə etməlidirlər. Əks təqdirdə kollektivdə olan sağlam insanlar da tez bir zamanda qripə yoluxa bilər. Xüsusən də immuniteti zəif olan insanlar bu xəstəliyi ağır keçirir.

Sovet dövründə kəskin respirator adı altında diaqnoz qoyulurdu. Bütün bu qripin sindromları, yəni burunun axması, asqırmaq, öskürmək, hərarət kimi əlamətlərlə müşahidə olunan bütün hallar kəskin respirator adı altında ümumiləşdirildi, xəstələnən şəxs müalicə almaq üçün bülletenə çıxarılırdı. Lakin indi daha çox özəl sektor olduğundan bu məsələyə o qədər də diqqət edilmir".

**Professor payız fəslində fəallaşan digər xəstəliklərdən də danışıb:**

"Payız fəslində o cümlədən mədə yarası, onikibarmaq xorası xəstəlikləri də aktivləşir. Eyni zamanda şəkərli diabet xəstələri fəsil dəyişkənliyi ələqədar səhhətlərinə diqqət etməlidir, çünki bu mövsümdə şəkərin miqdarı daha da yüksəlmə halları ilə tez-tez rast gəlirik. O cümlədən ürək-damar xəstəlikləri olan həssas insanlar da bacardıqları qədər hava dəyişkənliyinə adaptasiya olmalı, imkan olduqca həkim nəzarətindən keçməlidirlər".

❑ **Xalidə GƏRAY**

# Kənd təsərrüfatı məhsullarının qiyməti bahalaşıb

## "Mövsümi amilləri də nəzərə alsaq qiymət artımı gözlənilən bir prosesdir"

**Havaların soyuması ilə paralel olaraq kənd təsərrüfatı məhsullarının da qiyməti bahalaşıb. Bunu baş çəkdiyimiz "Yaşıl bazar"da müşahidə etdik. Bu bazarda əvvəllər alıcı aktivliyi olsa da, indi sanki bir boşluq vardı. Adətən, bazara gedib əlləri dolu çıxan alıcılar indi bir neçə zəruri məhsulları almaqla kifayətlənməli olur. Bunun da səbəbi qiymətlərin bahalaşmasıdır. Düzdür, bahalaşma cüzidir. Ancaq toplam hesabda məbləğ əhəmiyyətli dərəcədə nəzərə çarpır.**






Satıcılar xüsusən mövsümi məhsulların qiymətinin bahalaşdığını və bunun da təbii bir proses olduğunu bildirirdilər. **Satıcı Aydın Məmmədov** mövsümi məhsulların baha satıldığını dedi: "Bir sıra məhsullar var ki, artıq onların vaxtı gedir. Qışda həmin məhsullar olmur. Yeni havalar soyuyanda kəndçinin məhsulu az olur və bu da qiymətin bahalaşması ilə nəticələnir. Məsələn, əvvəl narı 40-50 qəpiyə satırdıqsa indi 60 qəpiyə satırıq. Çünki biz də bu məhsulu artıq ucuz almırıq. Üstünə 10-20 qəpik qoyanda gəlib o qiymətə çıxır. Biz də burada boşuna dayanmırıq. Buranın yer pulu var. Elə etməliyik ki, heç olmasa 5-10 qəpikdə özümüzə çörək pulu qalsın".

**Digər satıcı Arzu Əliyev** isə qiymətlər cüzi artım olduğunu bildirdi: "Bir sıra məhsulların qiyməti artıb. Digər məhsulların qiyməti eynidir. Biz bu məhsulları bura gətirib çıxarana qədər satdığımız məhsulun yarısı qədər pulumuz çıxır. Ona görə də bizi heç kim qınamasın".

Alıcılar isə bu vəziyyətdən narazıdır. **Alıcı Samirə Qarayeva** aldığı məvacibin aylıq ərzaq ehtiyaclarını ödəmədiyini dedi: "Yay qışa baxanda daha yaxşı olur. Ən azından qiymətlər nisbətən ucuz olur. Qışda bilmirsən nə alasan ki, həm ucuz olsun, həm də bir ailənin qida təminatını ödəsin".

Kənd təsərrüfatı mütəxəssisləri isə bahalaşmada məhsuldarlığın aşağı düşməsi, istehsalın azalması, məhsulun az olması kimi amillərin də böyük rol oynadığını bildirirlər. Həmçinin topdansatış mərkəzlərinin müəyyən dairələrin əlində olması və onların da xaricdən gətirilən mallara istədikləri qiymətləri qoyması da bahalaşmaya səbəb olan amillər sırasındadır.

**İqtisadçı-ekspert Azər Mehtiyev** mövsümi amilləri nəzərə alaraq qiymət artımının gözlənilən bir proses olduğunu dedi: "Azərbaycan iqtisadiyyatında ciddi bir inhisarlaşma mövcuddur. Buna görə də təbii ki, hər zaman inhisarçılar özlərinə sərf edən formada qiymət qaldırmağa meylli olurlar. Kənd təsərrüfatı məhsullarında da inhisar mövcuddur. Kənd təsərrüfatı məhsullarının emal müəssisələri inhisardadır. İnsanlar öz məhsullarını emal müəssisələrinə sata bilmirlər. Çünki dediyim kimi bir neçə inhisarçı bu sahəni əlində cəmləyib. Bunun nəticəsində kənd təsərrüfatı istehlakçıları bir çox məhsulların satışını normal təşkil edə bilmirlər. Ancaq bazarda, mağazalarda pərakəndə satışa çıxarılan məhsullarda qiymət artımının iki səbəbi ola bilər. Bunlardan biri yerlərdə kənd təsərrüfatı istehsalçılarının xərclərinin artması səbəbindən məhsulların üzərində əlavələr etməsi. Yəni onlar öz xərclərini qarşılamaq üçün ən azı məhsulun qiymətini qaldırmağa məcbur olurlar. Ölkədə elə məhsullar var ki, son zamanlar onlar böyük həcmdə istehsal olunub. Məsələn, üzüm bu məhsullar sırasındadır. Ancaq satışında çətinliklər var. Üzümü yetişdirən adam nəinki xərclərini çıxardır, hətta onu dəyər dəyməzə satmağa məcbur olurlar. Lakin biz bu ucuz qiymətə şəhərdə bazarlarda görmürük. Bu da daşınma xərclərinin artması, ticarətlə məşğul olan insanlara əlavə müəyyən məcburi ödənişlər səbəbindən qiymətlərin qalxması və sairə kimi amillər burada rol oynayır. İndi də qiymət artımı xüsusən də son devalvasiyadan sonra süni surətdə alınmışdı. Çünki devalvasiyadan sonra qiymət artımı qaçılmaz olur. İndi insanlar o xərcləri tədricən məhsulların üzərinə yükləməyə meylli olurlar. Ümumiyyətlə mövsümi amillərdə nəzərə alınsa burada qiymət artımı gözlənilən bir prosesdir".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# "Azəristiliktəchizat" ASC qışa hazır olduğunu deyir...

## Rafiq Əliyev: "Hazırda istiliyin vaxtından tez verilməsinə səbəb olacaq hava şəraiti yoxdur"



**Havalar kəskin soyumağa başlayıb. Təbii ki, bununla da Bakıda istilik, qaz, işıq problemləri əhalini narahat etməyə başlayıb. Hər il qışqabağı aidiyyəti qurumlar mövsümə, hər bir vəziyyətə hazır olduqlarını desələr də, sonradan bunun əksi ilə rastlaşırıq. Azərbaycanda aidiyyəti qurumların qış mövsümünə keçid Nazirlər Kabinetinin qərarı ilə hər il noyabrın 15-dən etibarən başlayır. Soyuqların düşməsi insanlarda xüsusən də istilik sisteminə olan tələbatı artırır.**

Havaların soyuması istilik sistemlərinin vaxtından öncə işə salınmasını da tələb edir.

Maraqlıdır, "Azəristiliktəchizat "ASC qış mövsümünə hazırdırmı və hazırkı hava şəraitində vaxtından əvvəl mövsümə başlaya bilərlərmi?

"Azəristiliktəchizat" ASC-nin abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyev qurumun qışa tam hazır olduğunu bildirdi: "Azəristiliktəchizat"ın fəaliyyəti mövsümün başlanması və qurtarmasından asılı olaraq yerli icra hakimiyyətlərinin sərəncamı ilə tənzimlənir. Hələ o vaxtdan Nazirlər Kabinetinin qərarı var idi ki, Bakı şəhərində istilik mövsümü 152 gün, yəni noyabrın 15-dən aprelin 15-ə kimi, 5 ay müəyyənləşdirilmişdi. Amma dağlıq rayonlarda 6 ay nəzərdə tutulurdu. Ancaq orada bir bənd də göstərilir ki, havaların kəskin soyuması baş verərsə, yaxud da o tərəfdən mövsümün axırına havaların tez isinməsi baş verərsə, yerli icra hakimiyyətlərinin qərarı ilə istilik mövsümü tez başlaya və yaxud da vaxtından tez qurtara bilər. Amma norma qaydalarında göstərilir ki, 5 gün ardıcıl orta sutkalıq temperatur 8 dərəcədən aşağı olduğu halda yerli icra hakimiyyətləri belə bir sərəncam verə bilərlər. Hazırda istilik mövsümünün vaxtından tez başlanmasına səbəb olacaq hava şəraiti yoxdur. Hava şəraiti normaldır. Bir daha qeyd edim ki, əgər beş gün ardıcıl havanın temperaturu 8 dərəcədən aşağı olarsa bu baş verə bilər".

**İstilik təchizatlarının yoxlanılması prosesinin yekunlaşıb yekunlaşmaması məsələsinə gəlincə isə R.Əliyev hər şeyin qaydasında olduğunu və qış mövsümünə tam hazır olduqlarını bildirdi:** "Biz demək olar ki, aprelin 15-də istilik mövsümü bitərkən bütün xətlərimizi yoxlamışıq. Harada sıradan çıxan yaxud da ki, qış mövsümündə problem yarada biləcək hissələr vardısa onlarda əsaslı təmir işlərini aparıb başa çatdırmışıq. Yəni "Azəristiliktəchizat"ın elə də bir ciddi problemi yoxdur".

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

Son səhifə

N 236 (6264) 24 oktyabr 2015




## Qadın dalaşqanlığının sirri bilindi

Ailələrdə ər-arvad qalmaqalının "biokimyəvi" səbəbi aşkarlanıb. Məlum olub ki, qanında qlükozanın miqdarı aşağı olan qadınlar ərləri ilə daha aqressiv davranırlar. ABŞ-ın Ohayo Universitetinin psixoloqu Bred Buşman bu qənaətə gəlib. "Science" jurnalının yazdığına görə, Buşman və onun Kentukki və Şimali Karolina universitetlərindən olan məsləkdaşları 107 evli cütlük seçərək onlara qlukometrlər, gəlinciklər və sancaqlar veriblər. Sınaqdan keçirilənlərin qanlarında şəkərin miqdarı gündə iki dəfə ölçülüb. Nəticədə qanında qlükozanın miqdarı aşağı olan qadınların həyat yoldaşlarını simvolizə edən gəlinciklərə sancaq batırdığı müşahidə olunub. Bu və ya digər təcrübələr göstərir ki, qlükozanın qanda miqdarı 25 faizdən aşağı olduqda, qadın daha aqressiv olur. Buşman qeyd edib ki, qlükoza soyuqqanlılığı qoruyur və emosiyaları nəzarətdə saxlayır. Digər alim Devid Benton da hesab edir ki, qlükozanın aşağı olması aqressiyanın səbəblərindən biridir.

## 15 saniyəyə "Zoluşka"dan şahzadəyə çevrilmək olar

**Amerikalı Belinda Krista maraqlı bir paltar hazırlayıb. Bu paltar sayəsində "Zoluşka"nın əsas qəhrəmanından şahzadəyə çevrilmək mümkün olacaq. Stili dəyişmək üçün cəmi 15 saniyə tələb olunur. Paltar-transformerlə bağlı hazırlanan süjet artıq internetdə də yayılıb və bu günədək 300 min nəfər tərəfindən baxılıb.**



Maraqlıdır ki, ilk dəfə 1950-ci ildə Disneyland tərəfindən çəkilən "Sindrella" multfilmi bu illər ərzində müxtəlif versiyalarda, dünyanın bir sıra ölkələrində təkrarən çəkilib. Hələ də dəbdən düşməyən filmin əsas özəlliyi isə gözəl paltar və ayaqqabı ilə kral balına düşmək istəyən gənc qızın arzularıdır. Ona bu arzusunu həyata keçirməyə isə sehrbaz kömək edir. B.Krista isə yeni icadı ilə 21-ci əsrin "sehrbaz"ı olmasına çalışıb.

## "Ya maaşımı 10 min dollar artırın, ya da..."

**Amerikada bir bankda işləyən məmur maaş artımı üçün şirkət rəhbərliyinə məktub yollayıb. Sözügedən məktub hazırda bütün dünyanın gündəmindədir. "Wells Fargo" adlı şirkətin şöbə işçisi Oates məktubunda özü və dostlarının məvacibinin 10 min dollar artırılmasını tələb edib. Bununla da o, ölkədə cəsarət simvoluna çevrilib. O, məktubuna özü ilə yanaşı düz 200 min nəfər həmkarını da əlavə edib və məktubunu sosial media saytı olan Redditə göndərib.**

O, məktubunda gəlir bərabərsizliyini də gündəmə gətirib. Yazıb ki, 7 il əvvəl saatı 13 dollardan olan işə başlayıb. Bu gün isə saata 15 dollar aldıqlarını yazan Oates "Mənim təklifim hər işçinin maaşının illik 10 min dollar artırılmasıdır. Bu, saatbaşı 4.71 dollar artım deməkdir. "Wells Fargo" şirkəti üçün bunun illik 3 milyard dollar olduğunu düşünəndə, kiçik bir rəqəmdir" yazıb.

Oatesin bu təklifinə indiyə qədər cavab gəlməyib.





## Yuxuda yeyib kökəlir

**İngiltərənin Çeşir qraflığındakı Uorrinqton şəhərində yaşayan Lesli Kusak hər gecə yuxusunda 2500 kalorilik yemək yeyir. Nadir qida pozuntusu xəstəliyi olan NSRED (Nocturnal Sleep-Related Eating Disorder) sindromlu 55 yaşlı qadın hər gecə yuxuya gedəndən sonra gecənin bir aləmində durur, evin birinci mərtəbəsindəki mətbəxə enir, önlüyünü taxır, meyvə və tərəvəz yeyir, yumurta qırır, ən müxtəlif xörəklər bişirir. Amma 55 yaşlı qadın oyananda nə etdiyini əsla xatırlaya bilmir.**

3 övlad anası olan Kusak gecə nə bişirib yediyini yalnız səhər saatlarında mətbəxi təmizləyəndə anlayır. Marketdə çalışan və təqaüdə çıxan Kusakın yeganə dərdi gecələr yuxulu-yuxulu dolaşması, yemək bişirib yeməsi deyil. Yuxulu olduğu üçün o, gecələr dəfələrlə vazelin, yuyucu toz və boya kimi zəhərli maddələri də bişirərək yeyib. NSRED sindromu ilk də 1955-ci ildə aşkarlanıb.




**QOÇ** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

**BUĞA** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**ƏKİZLƏR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**XƏRÇƏNG** - Əksər sahələrdə normal gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün nəzərdə tutduğunuz işlər asan başa gələcək. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız.

**ŞİR** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**QIZ** - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**TƏRƏZİ** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz doğruluğunuzu bəyan etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**ƏQRƏB** - Əgər qəlbinizdə kiçicik bir iman işığı varsa, gün ərzində Allaha zidd hərəkətlər etməyin. Əksinə, Yaradandan tövbə və bağışlanma diləyin. Heç kimin qəlbinə dəyməyin. Saat 16-19 aralığı çox uğurludur.

**OXATAN** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**OĞLAQ** - O qədər də əlverişli gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**SUTÖKƏN** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**BALIQLAR** - Mənfi yüklü Ayın bürcünüzdəki neqativ mövqeyi fəaliyyət sahəsində uğurlarınıza mane olmayacaq. Amma yeni münasibət qurmaq, qlobal problemləri həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu deyil.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sevgilisinin evini yandırdı, sonra evin damında oynadı

**ABŞ-ın İndiana ştatının sakini sevdiyi qızın maşınını vurub, sonra isə evini yandırıb. Yanan evin damına əlində bıçaqla çıxan 25 yaşlı Metyu Rass rəqs etməyə başlayıb. "The Daily Mail" qəzetinin xəbərinə görə, sözügedən video RTV6 telekanalının jurnalistləri tərəfindən çəkilib.**



Qəzetin yazdığına görə, gənc sevgilisindən onun maşınının açarını oğurlayıb və daha sonra onu divara vurub. Sonra evin qabağında, əlində bıçaqla polislərin gəlişini gözləyən Metyu polislər gələn kimi evə girib və onu yandırıb. Videosüjetdən də görünür ki, damda rəqs edən gəncin vəziyyəti qəfildən pisləşir. Onu damdan götürən polislər dərhal xəstəxanaya çatdırıblar. Gəncin psixoloji durumu yoxlamadan keçirilir. Cütlüyün niyə dava etdiyi hələ müəyyənləşməyib. Evsə tamamən yararsız vəziyyətə düşüb. Metyunun sevgilisi baş vermiş hadisədən şoka girib.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300